# Ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 17 FEVRAL 2022-Cİ İL / № 06 (1273)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU




**Rəsmi xronika**

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

**(fevralın 13-də)**

**.... və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda səfərdə olublar.**

... birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində yeni inşa olunmuş “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarının, o cümlədən “Qarabağ” Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak ediblər.

**... və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması mərasimində iştirak ediblər.**

... və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində inşa olunacaq “Park Forest Otel Ağdam” mehmanxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər.

**... və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdamda yeni yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak ediblər.**

... və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olublar.

**... və birinci xanım Mehriban Əliyeva 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər.**

... və birinci xanım Mehriban Əliyeva Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olublar.

**... və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdamda Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olublar.**

... və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağcabədi rayonuna səfər ediblər.

**... və birinci xanım Mehriban Əliyeva “Ağcabədi taxıl Aqropark”da yaradılan şəraitlə tanış olublar.**

... yenidən qurulan 110/35/10 kilovoltluq “Ağcabədi” yarımstansiyasının açılışını edib.

**... və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ağcabədi rayonunda yeni inşa olunan hərbi şəhərciyinin açılışında iştirak ediblər.**

... və birinci xanım Mehriban Əliyeva Ağcabədi rayonunda Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak ediblər.

**(fevralın 15-də)**

**... və NATO-nun Baş katibi Yens Stoltenberq arasında telefon danışığı olub.**

## Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib



**Prezident İlham Əliyevin 2017-ci il martın 17-də imzaladığı Sərəncamla yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, iclasda dövlətimizin başçısının Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı” çərçivəsində 2021-ci il ərzində görülən işlər, əldə edilən nəticələr, qarşıda duran vəzifələr müzakirə edilib.

**Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov** qeyri-formal məşğulluğun qarşısının alınması sahəsində 2021-ci il ərzində görülmüş işlər, əldə edilən uğurlar barədə məlumat verib. Komissiyanın sədri hesabat dövründə “Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı” üzrə tapşırıqların icrası ilə bağlı fəaliyyətin davam etdirildiyini bildirib, bu sahədə qəbul edilmiş qanunvericiliyin icrasına nəzarət, formal məşğulluğun təşviqi, maarifləndirmə, elektron nəzarət sistemlərinin qurulması və digər istiqamətlərdə tədbirlərin həyata keçirildiyini vurğulayıb. O, Prezidentin 2021-ci il dekabrın 17-də imzaladığı Sərəncama əsasən, bu il yanvarın 1-dən minimum əməkhaqqının məbləğinin 300 manata çatdırılmasının əhalinin sosial rifahının qorunması, muzdla işləyən şəxslərin layiqli əmək şəraitinin təmin edilməsi, eləcə də işçilərin formal məşğulluğa təşviqinə xüsusi töhfə verdiyini, işçi qüvvəsinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artmasını stimullaşdırdığını diqqətə çatdırıb.

İclasda **Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini, Qanunvericilik və idarəetmə üzrə İşçi qrupun rəhbəri Anar Əliyev** tikinti sahəsində vətəndaşların əmək hüquqlarının qorunması, sosial təminatlardan yararlanmasının təmin edilməsi, əmək münasibətlərinin rəsmiləşdirilməsinə nəzarətin gücləndirilməsi və monitorinqin təşkili ilə bağlı məlumat verib.

**Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini Rəhman Hümmətov** avtomobil nəqliyyatı sahəsində qeyri-formal məşğulluq halları barədə, bununla mübarizə sahəsində görülən işlər haqqında çıxış edib.

**Müzakirələrdə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev çıxış edərək müzakirə olunan məsələlərə münasibət bildiriblər.**

Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının 2021-ci il üzrə fəaliyyətinə dair dövlətimizin başçısına təqdim ediləcək hesabatın layihəsi müzakirə edilərək qəbul olunub.

**Komissiyanın sədri qarşıda duran vəzifələrin icrası, o cümlədən formal məşğulluğun təşviqi istiqamətində maarifləndirmə tədbirlərininin gücləndirilməsinə dair tapşırıqlar verib.**

## Mart ayında bayramlara görə 9 gün iş olmayacaq

March 2022 — Calendarpedia

| Sunday | Monday | Tuesday | Wednesday | Thursday | Friday | Saturday |
|---|---|---|---|---|---|---|
| 27 | 28 | 1 | 2 | 3 | 4 | 5 |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 27 | 28 | 29 | 30 | 31 | 1 | 2 |

**Mart ayında bayramlarla əlaqədar qeyri-iş günlərinin sayı məlum olub.**

Beynəlxalq Qadınlar Günü münasibətilə martın 8-i, həftənin çərşənbə axşamı qeyri-iş günüdür.

**Martın 20-24-də Novruz bayramı ilə əlaqədar qeyri-iş günləridir. Martın 20-i bazar gününə təsadüf etdiyindən iş və istirahət günlərinin yeri dəyişdiriləcək və ayın 25-i qeyri-iş günü olacaq. 26 və 27 mart tarixləri də şənbə, bazar gününə təsadüf etdiyi üçün Novruz bayramı ilə əlaqədar 8 gün ardıcıl (20, 21, 22, 23, 24, 25, 26 və 27 mart) iş olmayacaq.**

## COVID-19 infeksiyasına son sutkada 7148 yoluxma faktı qeydə alınıb




**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 7148 yoluxma faktı qeydə alınıb, 7887 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 22 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 759 min 753 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 703 min 952 nəfər müalicə olunaraq sağalıb, 9 min 127 nəfər vəfat edib. Aktiv xəstə sayı 46 min 674 nəfərdir.

**Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 18 min 346, bu günə qədər isə ümumilikdə 6 milyon 432 min 504 test icra olunub.**

### Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 6

### Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

### Beynəlxalq

### Müəllim peşəsinin statusunun yüksəldilməsi

BAX SƏHİFƏ: 7



Qeyd edildi ki, bərpa zamanı tarixi kərpiclərin zədələnməməsi və kompozitin divardan qopmaması üçün işlər əl ilə aparılacaq. Bərpa prosesinin ikinci mərhələsində fasadlar biogen böyümədən təmizlənəcək, zədələnmiş və ya qırılmış kərpiclər bərpa ediləcək. Məscidin bişmiş kərpicdən hörülmüş iki minarəsinə qalxan spiralvari pilləkənlərdə qırıq birləşmələr, kafel başları və mövcud rəng nümunələri çıxarılacaq, ikinci mərhələdə minarələrin kərpic hörgülərinin biogen artımının qarşısı alınacaq, üçüncü mərhələdə isə kərpic başları bərpa olunacaq.

Daha sonra rəng nümunələri və yazı zolaqları tarixi xüsusiyyətlərə uyğun olaraq mineral rəngli materialla bərpa ediləcək. Qübbələr üzərində qırılan hörgü birləşmələri və gips örtükləri çıxarılacaq.

Bərpa işləri, bütövlükdə, tarixi görünüşə uyğun olaraq həyata keçiriləcək.

# Heydər Əliyev Fondu
## *Qarabağda tarixi abidələrimizin bərpasını uğurla davam etdirir*

**Ölkəmizin işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işləri Prezident İlham Əliyevin birbaşa rəhbərliyi altında uğurla gerçəkləşdirilir. Dövlət başçısının bölgəyə davamlı səfərləri hər dəfə yeni obyektlərin işə salınması və növbəti layihələrə start verilməsi ilə əlamətdar olur. Bu baxımdan ölkə rəhbəri İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam və Ağcabədi rayonlarına budəfəki səfərlərinin proqramı daha rəngarəng və zəngin idi.**

**Qarabağda həyata keçirilən önəmli və təxirəsalınmaz layihələr sırasında tarixi-mədəniyyət abidələrinin bərpasından söz açan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev bildirdi:**

- Azərbaycanın işğal edilmiş şəhər və kəndlərini başdan-başa qarət etmiş, dağıtmış və yandırmış erməni vandalları tarixi-mədəniyyət abidələrimizi xüsusi bir amansızlıqla yer üzündən silmişlər. Bu da səbəbsiz deyildir. Çünki bu ərazilərdəki çoxsaylı tarixi abidələr onların bina edildikləri torpaqların birmənalı olaraq xalqımıza məxsus olduğuna şahidlik edirdi. Buna görə də insanlıq simasını itirmiş işğalçılar Qarabağda Azərbaycan tarixinin canlı göstəricisi olan abidələrin, irili-xırdalı tikililərin əksəriyyətini məhv etmiş, bir parasını isə xalqımıza məxsus əlamətlərini yox edərək öz adlarına çıxmışdılar.

Həmin abidələrdən biri, XIX əsrin yadigarı olan Ağdam cümə məscidi ona görə dağıdılmamışdı ki, onun hündür minarələrindən işğal dövründə hərbi müşahidə qülləsi kimi istifadə olunmuşdu. Allahın evi sayılan məscidin içərisində isə ən ülvi bəşəri dəyərlərə belə məhəl qoymayan vəhşiləşmiş ermənilər heyvan saxlamışdılar.

2020-ci il noyabrın 20-də ermənilər Ağdamı rüsvaycasına tərk etməyə məcbur edildikləri gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayon mərkəzinə gələrək, ilk növbədə, bu məscidi ziyarət etdilər, qəddar düşmənin törətdiyi misilsiz vəhşiliyin acı mənzərəsini bütün dünyaya sərgilədilər. Həmin səfər zamanı döyüşçülərimizin təmizləyib sahmana saldıqları məscidə müqəddəs "Quran" nüsxəsi hədiyyə edən Mehriban xanım bu nadir tarixi məkanın bərpasını rəhbərlik etdiyi Heydər Əliyev Fondunun icrasına götürdü.

**Ağdama budəfəki səfərləri zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva artıq məsciddə start götürmüş əsaslı bərpa işlərinin gedişi ilə də yerində tanış oldular. İşğaldan azad olunan ərazilərdə Heydər Əliyev Fondunun layihələrinin koordinatoru Sabiq Abdullayev dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verərək bildirdi ki, Ağdam Cümə məscidinin bərpa-restavrasiyası layihənin icrası üçün Avstriyanın "Brugger&KO Restauratoren GmbH" şirkəti ilə müqavilə imzalanıb.**

**Görülən işlərlə tanışlıqdan sonra dövlətimizin başçısı İlham Əliyev bildirdi: "Mənə bu gün verilən məlumata görə, Ağdam Cümə məscidinin bərpa işlərinə başlanılır. Artıq bütün tədqiqatlar aparılıb və mart ayından başlayaraq məscidin həm daxilində, həm çöl hissəsində təmir-bərpa işlərinə start veriləcək. Azad edilmiş torpaqlarda hazırda 8 məscidin əsaslı təmiri, bərpası və tikintisi nəzərdə tutulub. Bütün bu istiqamətlər üzrə işlər gedir. Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri əsaslı təmir edilir. Şuşa şəhərində yeni məscidin inşasına start verilib. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi prosesi başlamışdır.**

Bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür. Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir".

Müsahibimiz dövlət rəhbərlərinin Ağdam və Ağcabədi rayonlarına səfərləri ilə bağlı açıqlamasının sonunda dedi:

- Bu səfərdən də göründüyü kimi, işğaldan azad olunmuş ərazilərimizdə tarixi abidələrimizin bərpası ilə bağlı Heydər Əliyev Fondu bir sıra layihələrin icrasını öz üzərinə götürmüşdür. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Qarabağdakı bir sıra dağıdılmış dini abidələrimizin, məscidlərimizin restavrasiyasına başlayıb və fond burada aparılan digər işlərə də mühüm töhfələr verir.

**Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərdə tarixi-mədəniyyət abidələrinin bərpası istiqamətində kompleks tədbirlər Qarabağa Böyük qayıdışa zəruri əsaslar yaradır. Demək olar ki, yalnız dövlətimizin maliyyə imkanları hesabına, heç bir kənar maliyyə dəstəyi olmadan, Qarabağda və Şərqi Zəngəzurda yeni şəhər və kəndlər salınır. 3 hava limanının inşa olunması, 100 kilometrlərlə dəmir yolunun, minlərlə kilometr avtomobil yolunun çəkilməsi, həmçinin abadlıq-quruculuq işləri çərçivəsində icra olunan digər layihələr ölkəmizin gücünü və qüdrətini nümayiş etdirir.**

**"Xalq qəzeti", 16 fevral 2022-ci il**

# AHİK-in Respublika Turizm və Ekskursiyalar Şurasının inzibati binası təmir olunub



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev AHİK-in Respublika Turizm və Ekskursiyalar Şurasının inzibati binasında aparılan əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.**

**Şuranın sədri İlmir İsmayılov binada yaradılan şəraitlə bağlı AHİK sədrinə məlumat verib.**



**Bildirib ki, binanın bütün otaqları yüksək standartlara uyğun təmir edilib, müasir texniki avadanlıqlarla təchiz olunub, əməkdaşların səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb.**

**Otaqlara baxış keçirən S.Möhbalıyev yaradılmış şəraitdən razı qaldığını bildirib və kollektivə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.**

# *Milli Məclis Prezidentin idarəetmənin təkmilləşdirilməsi ilə bağlı islahatlarına tam dəstək verir*

**Fevralın 15-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. İclasa başlamazdan əvvəl parlamentin Sədri Sahibə Qafarova onun başçılığı ilə Milli Məclisin nümayəndə heyətinin fevralın 1-dən 7-dək Baltikyanı ölkələrə rəsmi səfəri barədə qısa məlumat verib.**



Deputatlar bu günlərdə Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında imzalanmış Şuşa Bəyannaməsinin iki ölkənin prezidentləri tərəfindən təsdiq olunaraq hüquqi qüvvəyə mindiyini bildirərək bunu iki qardaş ölkə tarixində müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizliyimizin təmin olunması baxımından mühüm addım kimi qiymətləndiriblər.

**Deputatlar həmçinin Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın Ağdama növbəti səfəri barədə fikirlərini açıqlayıblar. Dövlət başçısının Qarabağın yenidən qurulması ilə bağlı layihələr barədə ictimaiyyətə verdiyi məlumatları, o cümlədən Heydər Əliyev Fondunun töhfəsi olaraq mədəni-tarixi abidələrimizin bərpası istiqamətində həyata keçirilən işləri xüsusi vurğulayıblar. Çıxışlarda ölkə gündəmində olan bir sıra digər məqamlara toxunulub, seçiciləri narahat edən məsələlərdən bəhs edilib.**

**Daha sonra gündəlikdəki 11 məsələyə baxılıb.**

# *Gələcək səmərəli qayıdışın başlıca şərtləri*



**Millət vəkili Elşad Mirbəşir oğlu Prezident İlham Əliyevin Ağdam rayonuna səfəri ilə bağlı bildirib ki, Böyük Qayıdış Strategiyası sistemli şəkildə həyata keçirilməkdədir. Məntiqli yanaşma ondan ibarətdir ki, insanlar öz doğma yurd-yuvalarına qayıtdıqdan sonra həm də layiqli həyat şəraitinə malik olmalıdırlar. Ona görə də ölkə Prezidenti işğaldan azad olunmuş ərazilərimizdə ilk növbədə müxtəlif müəssisələrin açılmasına diqqət yetirir. İstehsal sahələrinin, iş yerlərinin açılması gələcək səmərəli qayıdışın ən başlıca şərtlərindən biridir. Müşahidələrimiz göstərir ki, dövlət başçısı sistemli şəkildə işğaldan azad olunmuş ərazilərimizə səfər edərək, hər səfər çərçivəsində müxtəlif infrastruktur quruculuğu ilə tanış olur. Eyni zamanda yeni müəssisələrin əsasını qoyur. Təbii ki, 30 ilə yaxın zaman kəsiyində torpaqlarımız işğal altında olub, həmin ərazilərdə daş daş üstündə qalmayıb, hər yer virana qoyulub. Hər şeydən öncə ölkə başçısının bu səfərləri Ermənistanın həm də bir dövlət olaraq mahiyyətini ortaya qoyur. Dünyanın aparıcı kütləvi informasiya vasitələri Azərbaycan Prezidentinin işğaldan azad olunmuş ərazilərimizə səfərlərini diqqət mərkəzində saxlayır, geniş işıqlandırır. Və bu zaman Ermənistanın Azərbaycan ərazilərində həyata keçirmiş olduğu terrorizmin, vandalizmin izləri aydın görünür. İnformasiya müstəvisində bu, artıq keçmiş münaqişə vəziyyətində Azərbaycanın haqlı mövqeyini dünyaya bir daha çatdırmış olur.**

Millət vəkili diqqətə çatdırıb ki, məsələnin digər tərəfi Azərbaycanın öz resursları hesabına işğaldan azad edilmiş ərazilərimizdə çox böyük sürətlə tikinti-quruculuq işlərini həyata keçirməsidir. Və ölkəmizin konseptual yanaşması həm də ondan ibarətdir ki, bu gün Azərbaycan ekoloji təhlükəsizliyin qeydinə də qalmaqdadır. Bildiyimiz kimi, Azərbaycan işğaldan azad olunmuş ərazilərdə yaşıl iqtisadiyyat konsepsiyasını həyata keçirir. Azərbaycan Prezidentinin strateji baxışı təkcə bizim milli maraqlarımız çərçivəsində fəaliyyətin həyata keçirilməsini deyil, bütövlükdə qlobal müstəvidə dünya ictimaiyyətinin maraqlarına cavab verəcək addımların atılmasını şərtləndirir.

Prioritet hədəf ondan ibarətdir ki, hər şeydən öncə iş yerlərinin açılması nəzərdə tutulur. İnsanlar öz yurd-yuvalarına qayıtdıqdan sonra mütləq onların məşğuliyyəti öz həllini tapmalıdır. Təbii ki, dövlət tərəfindən bütün addımlar atılır. Əhalinin gələcəkdə orada yaxşı həyat şəraitinə sahib olması, eyni zamanda iş yerləri ilə təmin olunması effektiv məskunlaşdırma konsepsiyasının çox mühüm elementlərindən biridir.

**Cənab Prezident Ağdamda olarkən çağırış da edib. Bu çağırış da əsasən iş adamlarına ünvanlanmışdır ki, onlar öz tarixi torpaqlarında iş yerlərinin açılmasında iştirak etsinlər. Bu, hesab edirəm ki, həm də gələcəkdə dövlətə özəl sektorun yaxından dəstəyidir. Nəzərə almaq lazımdır ki, ölkəmizdə dövlət-özəl sektor iş birliyi təcrübəsi artıq kifayət qədər geniş inkişaf etdirilməkdədir. Yol infrastrukturunun gerçəkləşdirilməsi gələcəkdə səmərəli məskunlaşmanın həyata keçirilməsinin çox vacib şərtlərindən biridir. Ayrıca olaraq bunu ölkə rəhbəri də dəfələrlə qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə həyata keçirilməsi üçün mütləq şəkildə keyfiyyətli yol infrastrukturu qurulmalıdır. Bərdə-Ağdam istiqamətində, Ağdam-Füzuli istiqamətində yol quruculuğu işləri çox böyük sürətlə aparılır. Ən strateji məqam ondan ibarətdir ki, Ağdamla Füzuli Hava Limanını birləşdirən yolun inşası həyata keçirilməkdədir. Bu həm gələcəkdə iqtisadi layihələrin həyata keçirilməsi, həm də təhlükəsizlik baxımından əhəmiyyətlidir.**

**Azər MUSTAFAYEV**



# Pan Avropa Regional Şurasının “Qış Məktəbi”

**Pan Avropa Regional Şurasının (PARŞ) növbəti “Qış Məktəbi” fevral ayının 10-da və 11-də onlayn keçirildi. Müxtəlif həmkarlar ittifaqı təşkilatlarının 110 nəfərə yaxın nümayəndəsinin iştirak etdiyi tədbiri PARŞ-ın prezidenti, Gürcüstan Həmkarlar İttifaqları Konfederasiyasının sədri İrakli Petriaşvili açdı. O, gündəlikdə duran məsələləri təqdim etdikdən sonra koronavirusa qarşı vaksinlərin bir çox ölkələr tərəfindən qarşılıqlı şəkildə tanınmamasının törətdiyi problemlərə toxundu. Dedi ki, bu da öz növbəsində əmək bazarına mənfi təsir göstərir. Bütün vaksinlərə “hə” deyən yeganə ölkə Avstraliyadır. Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının növbəti qurultayının noyabr ayında bu ölkənin paytaxtı Melbrunda keçirilməsi nəzərdə tutulduğundan həmin xəbər məmnunluq doğurur.**

İ.Petriaşvili onu da qeyd etdi ki, post-pandemiya dövründə hələ də yeni iş yerlərinin yaradılması, əməyin mühafizəsi və əmək sahələrinin bərpası məsələləri aktual olaraq qalır.

İşçilərin hüquqlarını qoruyan təşkilat kimi, qarşıda duran problemləri həll etmək, regionda əmək sferasına mənfi təsir göstərən amillərin qarşısını almaq üçün birgə səylərimizi artırmalıyıq.

**Sonra gündəlikdəki ilk məsələ - “Qlobal və regional səviyyələrdə məşğulluq perspektivləri” mövzusunda müzakirələr başladı. Pan Avropa Regional Şurasının və Avropa Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibi Luka Visentini çıxış edərək bildirdi ki, post-pandemiya dövründə işçilər, əsasən də ön cəbhədə çalışanlar bir çox ciddi problemlə üzləşirlər, maaşlar yenə də azalır. İşçilərin təhlükəsiz iş yerləri ilə təmin edilməsi, distant işçilərin hüquqları və sair məsələlər Avropada qanun çərçivəsində həllini tapmalıdır. Vaksinlərin qarşılıqlı olaraq tanınmaması bu problemləri daha da kəskinləşdirir. L.Visentini qeyd etdi ki, yeni iş yerlərinin yaradılması üçün investisiyalar artırılmalıdır. Biz iqtisadiyyatın işçilərin qorunması və təhlükəsiz iş yerlərinin yaradılması kontekstində qurulmasını tələb etməliyik. İş yerlərində ixtisarların aparılmasına, maaşların azaldılmasına və sair bu kimi neqativ hallara qarşı sərt mövqe tutmalıyıq. Sosial müdafiəni təmin etmək üçün müxtəlif kampaniyaların gücündən bəhrələnməliyik. Beynəlxalq Əmək Təşkilatının konvensiya və normalarının qəbul edilməsinə və icrasına nail olmalıyıq.**

L.Visentini Avropada mövcud geosiyasi vəziyyətlə bağlı narahatlığını da diqqətə çatdırdı. Bildirdi ki, qitədə qarşıdurmalar pik həddə çatıb. Belarusda, Qazaxıstanda baş verən son hadisələr insan hüquqlarının pozulmasına dair arzuolunmaz nümunədir. Bütün bunlar Avropada və digər üzv ölkələrdə demokratiyaya mənfi təsir göstərir. Biz sülhə dəstək verməliyik, haqq səsimizi siyasətçilərə çatdırmalıyıq.

**Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) Baş katibi Şaran Barrou** isə çıxışında bir çox ölkədə koronavirusa yoluxma hallarının artmaqda olduğunu vurğuladı. Dedi ki, bu da iş şəraitinin, sosial təminatın pisləşməsinə və maaşların azalmasına gətirib çıxarır. Üzv ölkələrdə müxtəlif sahələrdə çalışan qadınların 98 faizinin gəlirləri azalıb. Qeyri-formal iqtisadiyyatda qadınların və gənclərin sayı 60 faizi ötüb. İqtisadiyyatın bütün sektorlarını əhatə edən yeni ictimai müqavilələrin bağlanmasına zərurət vardır. Bu müqavilələrdə iş yerlərinin sayının azaldılmaması, yeni investisiyaların ayrılması xüsusi qeyd olunmalıdır.

Ş.Barrou əlavə etdi ki, 500 milyon yeni iş yeri yaradılmalıdır. Qeyri-formal iqtisadiyyatda çalışan 1 milyard işçinin ən azı yarısı formal iqtisadiyyata keçməlidir, həmçinin yeni iş yerlərinin açılmasına imkan verən ekoloji sahələrə də investisiyalar ayrılmalıdır.

**Beynəlxalq Əmək Təşkilatının baş iqtisadçısı Məhəmməd Mvabadzinqo məşğulluğun perspektivlərinə dair məlumat təqdim etdi. O, BƏT-in “2022-ci ildə məşğulluq sahəsində dünya tendensiyaları” adlanan hesabatına istinadən bildirdi ki, 2022-ci ildə qlobal işsizlik səviyyəsi 2019-cu il ilə müqayisədə 21 milyon nəfər artaraq 207 milyon nəfərə çatacaqdır. BƏT-in proqnozlarına görə, 2022-2023-cü illərdə də regionlarda əsas əmək bazarı göstəriciləri pandemiyadan əvvəlki səviyyəyə yüksəlməyəcəkdir. Avropa və Şimali Amerika regionlarında isə bərpa göstəriciləri nisbətən ümidvericidir. Cənubi-Şərqi Asiya, Latın Amerikası və Karib hövzəsi ölkələri bu baxımdan, hələ ki, perspektivsizdir.**

Natiq qeyd etdi ki, bərpa prosesi əmək bazarlarında olan gəlirliliyin səviyyəsindən asılı olacaqdır. Pandemiya ayrı-ayrı fəaliyyət sahələrinə müxtəlif dərəcədə təsir göstərmişdir. Məsələn, səhiyyə, fövqəladə hallar və digər sahələr işçi qüvvəsinin tam komplektləşdirilməməsi səbəbindən çox problemlər yaşamışdır.

Həmçinin diqqətə çatdırıldı ki, 2020-ci ildə Şərqi Avropada 2,7 milyona yaxın insan işini itirdi. Onların 1,1 milyonu başqa iş yeri tapa bilmədiyindən tam işsiz qaldı. 2020-ci ildə tam işsiz qalanlar arasında qadınların payı Cənubi və Şərqi Avropada bir qədər yüksək olub.

**BHİK-in növbəti qurultayında qəbul ediləcək əsas fəaliyyət istiqamətlərinin layihəsini baş ofisin kampaniyalar və kommunikasiyalar üzrə direktoru Tim Nunan təqdim etdi. Bildirdi ki, BHİK-in qurultayında əsas mövzu yeni ictimai müqavilə olacaqdır və əmək sahəsində fundamental dəyişiklikləri əhatə edəcəkdir. Bu ictimai müqavilə 3 əsas çağırışı və 6 tələbi əks etdirəcəkdir.**

**Çağırışlar bunlardır:**

İqlim dəyişiklikləri; Pandemiya və qlobal səhiyyə; Texnoloji dəyişikliklər.

**Tələblər aşağıdakı sahələrlə bağlıdır:**

**1.** İş yerləri - milyonlarla iş yeri açılmalıdır (Pandemiya zamanı 200 milyondan çox iş yeri ləğv olunmuşdur);

**2.** Hüquqların qorunması - bir çox hallarda siyasi repressiyalara, vətəndaş azadlığına qarşı hərəkətlərə yol verilir. Bu kimi halların qarşısı alınmalıdır. Əməyin mühafizəsi fundamental hüquqlardan olmalıdır;

**3.** Əməkhaqqı - pandemiya dövründə maaşların azalması tendensiyası müşahidə olunur, buna qarşı birgə fəaliyyət göstərməliyik. Layiqli minimum əməkhaqqı təyin olunmalıdır;

**4.** Sosial müdafiə - bu, post-pandemiya dövründə hamı üçün əsas fəaliyyət istiqaməti olmalıdır;

**5.** Bərabərlik - buraya gender bərabərliyi, miqrant işçilərin hüquqlarının qorunması aiddir;

**6.** İnklüzivlik - dayanıqlı inkişafı, BƏT-in 100 illik Bəyannaməsinin əsas elementlərini özündə ehtiva edir.

**Layihə geniş müzakirə olundu. Müzakirələrdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin müavini Aqil Dadaşov da çıxış etdi. O, son iki ildə Beynəlxalq Əmək Təşkilatının dəstəyi ilə görülən işlər, aparılan analitik təhlillər barədə geniş məlumat verdi. Bunların nəticəsi kimi 8 kitabın işıq üzü gördüyünü vurğuladı.**

“Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının gənclərin məşğulluğunun təşviqi sahəsində təhlilinə dair məlumat hesabatı” kitabçasını əyani nümayiş etdirdi.

**A.Dadaşov təklif etdi ki, BHİK-in qurultayının fəaliyyət istiqamətlərində BƏT-in rolu xüsusi vurğulanmalı, bu təşkilatla əməkdaşlığın vacibliyi qeyd edilməlidir.**

Müzakirələrdə verilən təkliflərə münasibət bildirən T.Nunan yekun çıxışında A.Dadaşovun fikirlərinin nəzərə alınacağını bildirdi.

Daha sonra “Avropada sülh və sabitlik”, “Cənub-Şərqi Avropada siyasi və iqtisadi durum”, “Qazaxıstanda vəziyyət” məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

**Pan Avropa Regional Şurasının icraçı katibi Anton Leppik** isə 2022-ci il üçün keçirilməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verdi.

**Tədbirdə AHİK-in Zəhmətkeşlərin əməyinin və sosial-iqtisadi mənafelərinin müdafiəsi şöbəsinin müdiri Çingiz Tağıyev, baş mütəxəssisi Arif İbrahimov və Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Anar Mahbalıyev də iştirak ediblər.**

# Yeni təşkilat təsis olundu



**Fevralın 10-da “Azerimining Group” MMC-də həmkarlar ittifaqı təşkilatının təsis iclası keçirilmişdir. İclasda təşkilatın yaradılması, komitə üzvlərinin və sədrinin seçilməsi məsələlərinə baxılmışdır. İclas iştirakçıları Loğman Məmmədovun sədr vəzifəsinə namizədliyini irəli sürmüş və yekdilliklə dəstəkləmişlər.**

Tədbirdə Metal İşçiləri Həmkarlar İttifaqı Federasiyasının prezidenti Bəkir Yusifov və “Azerimining Group” MMC-nin direktoru İsrafil Cəlilov da iştirak etmişlər.

**Məlumat üçün deyək ki, “Azerimining Group” MMC 2018-ci ildən etibarən dağ-mədən sənayesi sahəsində fəaliyyət göstərir. Şirkət respublikamızın regionlarında üstaçma, qazma, partlayış, süxurdaşıma, rekultivasiya və digər işləri icra edir. Reylef baxımından çətinliklərə baxmayaraq, MMC rəhbərliyi əməyin mühafizəsi və ətraf mühitin qorunması məsələlərinə məsuliyyətlə yanaşır.**

İnsanların təhlükəsizliyinə, sağlamlığına, ətraf mühitə, avadanlığa və keyfiyyətə təsir göstərən bütün zərərli faktorların minimuma endirilməsinə, risk və imkanların idarəedilməsinə və təhlükəsiz iş mühitinin yaradılmasına nail olur.

**İdarəetmə sistemlərinin daimi inkişafını təmin etmək üçün işçi personalının davamlı olaraq maarifləndirilməsi, onların peşəkarlığının artırılması istiqamətində bütün vasitə və imkanlardan maksimum dərəcədə istifadə edilir.**

# Respublika Komitəsi də dəstəyini əsirgəməyəcək



**Azərbaycan Dövlət İqtisad Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsi növbəti iclasını keçirib. Univerisitetin Həmkarlar İttifaqı Komitəsinin sədri Rüfət Süleymanovun sədrliyi ilə baş tutan iclasda təşkilati məsələyə baxılıb. Səs çoxluğu ilə İlkan Əliyev komitə sədri seçilib. O bu etimada görə onun namizədliyini dəstəkləyənlərə təşəkkürünü bildirib. Deyib ki, bu etimadı fəaliyyəti ilə doğruldacaq. Tələbələrin təhsil, sosial hüquqlarının qorunması işinə bütün gücü ilə komitənin səfərbər edilməsi üçün səylərini əsirgəməyəcək.**

İclasda iştirak edən Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə dedi ki, gənclər seçimlərində yanılmayıblar. Bizdə olan məlumata görə, yeni sədr olduqca fəal ictimaiyyətçi və bacarıqlı təşkilatçıdır. Aparıcı məsləhətçi kimi Tələbə Həmkarlar İttifaqı Komitəsi tərkibində yaxşı təcrübə qazanıb. Universitetin, rayonun ictimai, siyasi həyatında fərqlənən gənclərimizdəndir. Bunu aldığı mükafatlar da təsdiqləyir. O, dəfələrlə rektorluğun Fəxri fərmanları, ötən il isə sahə həmkarlar ittifaqının 100 illiyi münasibətilə təsis olunmuş “Yubiley döş nişanı”na , “ İlin peşəkar gənci” fəxri adına layiq görülüb. İ. Əliyev təhsil aldığı illərdə də fərqlənib. 2016- 2018 -ci illərdə sahə Hİ Respublika Komitəsinin adlı təqaüdüni alanlar sırasında olub.

**Mirzə müəllim bildirdi ki, təmsil etdiyi təşkilat digər istedadlı, perspektivli gənclər kimi, İlkanı da yeni vəzifəsində dəstəkləyəcək .**

# “Azərbaycan iqtisadiyyatının modernləşdirilməsində gənclərin rolu”



**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının İqtisadiyyat və idarəetmə kafedrasının təşkilatçılığı ilə 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş “Azərbaycan iqtisadiyyatının modernləşdirilməsində gənclərin rolu” mövzusunda doktorant, magistr və tələbələrin Respublika Elmi-praktiki konfransı keçirilmişdir.**

Konfransı giriş sözü ilə Akademiyanın Tədris və elmi işlər üzrə prorektoru, professor Fərhad Möhbalıyev açmışdır. O, dövlətimizin gənclər siyasəti barədə danışmışdır. Demişdir ki, gənclərin cəmiyyətimizin fəal üzvlərinə çevrilməsi üçün hər cür şərait yaradılmışdır. Gənclərimiz bu gün dövlət idarəetmə orqanlarında, sənaye, kənd təsərrüfatı, mədəniyyət sahələrində uğurla çalışırlar. Həmkarlar ittifaqı təşkilatları da gənc kadrların potensialından istifadə edir, ən mühüm vəzifələrdə özlərini sınamalarına geniş imkanlar açır.

F.Möhbalıyev tədbir iştirakçılarını, onların timsalında Azərbaycan gəncliyini əlamətdar gün münasibətilə təbrik etdi. Hər birinə yeni-yeni nailiyyətlər arzuladı. Həmçinin iqtisadiyyat və idarəetmə kafedrasının müdiri i.e.d. Vilayət İsmayılov başda olmaqla, tədbirin təşkilatçılarına təşəkkürünü bildirdi.

**Konfransda Akademiyanın doktorant, magistr və tələbələri ilə yanaşı, BDU, DİA, ADİU, SDU, AKU, ATU-nun doktorant, magistr və tələbələri də öz elmi məqalələri ilə çıxış etdilər.**

# Rayonun ictimai həyatında fərqlənənlər mükafatlandırıldı

**Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Şəki Rayon Komitəsi və Şəki Şəhər M.F.Axundzadə adına Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə 2 Fevral-Azərbaycan Gəncləri Gününə həsr olunmuş “Vətənimizin gələcəyi olan gənclərlə görüş” adı altında tədbir keçirildi.**



Tədbirdə 44 günlük Vətən müharibəsində torpaqlarımız uğrunda canından keçmiş şəhidlərimizin ruhu birdəqiqəlik sükutla yad edildi və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Şəki Rayon Komitəsinin sədri Rəhman Məmmədov çıxış edərək bildirdi ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlətimizin gənclər siyasəti bu gün öz bəhrəsini verməkdədir. Bu siyasətin həyata keçirilməsində Azərbaycan Həmkarlar İttifaqları da yaxından iştirak edir. Gənclərin rifah halının yaxşılaşdırılması, məşğulluğu, sosial problemlərinin həlli, istirahətlərinin təşkili istiqamətində böyük işlər görür. Sədr görülən işlər barədə rayon təşkilatının timsalında konkret faktları diqqətə çatdırdı.

**Şəki Regional Mədəniyyət İdarəsinin rəisi səlahiyyətlərini müvəqqəti icra edən Tərlan Nəsibov gəncləri təbrik etdi, onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.**

Rayon Komitəsinin Gənclərlə iş üzrə komissiyasının sədri Nəzakət Əliyeva, M.F.Axundzadə adına Mədəniyyət Mərkəzinin direktoru Ağaəli Cəlilov çıxış edərək rayonun ictimai-mədəni həyatında gənclərin fəal iştirakından danışdılar, onlara uğurlar arzuladılar.

**Rayon Komitəsinin sədri rayonun ictimai həyatında fərqlənən istedadlı gənclərdən bir qrupuna mükafatlar təqdim etdi.**

**Tədbir konsert proqramı ilə başa çatdı.**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

# Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında həmkarlar ittifaqlarının rolu

əvvəli ötən saylarımızda

**Ulu Öndərin tövsiyələrinə uyğun olaraq, bu gün həmkarlar ittifaqları əmək prosesinə cəlb olunmuş Azərbaycan vətəndaşlarının hüquqlarının müdafiəçisi kimi ölkəmizdə fəaliyyət göstərən bütün müəssisələrdə, o cümlədən xarici sərmayə ilə işləyən təşkilatlarda, transmilli şirkətlərdə iş şəraitinin müasir standartlara uyğunlaşdırılması, sosial problemlərin həlli və əmək hüquqlarının təmin olunması sahəsində yeni metod və vasitələrdən istifadə edərək daha ardıcıl və məqsədyönlü fəaliyyət göstərir. Həmçinin əmək münasibətlərinin tənzimlənməsi, işçilərin əmək hüquqlarının qorunması, onların sosial müdafiəsinin, asudə vaxtının təşkili, müəssisə rəhbərləri ilə işçilər arasında əmək münasibətlərinin normal məcrada qurulması, yarana biləcək ziddiyyətlərin aradan qaldırılması, işçilərin qanuni mənafelərinin qorunması istiqamətində fəal iş aparılır.**

İşəgötürənlə əməkdaşlıq çərçivəsində ittifaq üzvlərinin mənafelərinin təmsil olunmasını, kollektiv danışıqların aparılmasını, kollektiv müqavilələrin, sazişlərin bağlanmasını və onların yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsini təşkilat özünün əsas vəzifələrindən hesab edir və bu sahədə ixtisaslaşmış ictimai qurum kimi cəmiyyətdə özünü təsdiqləyib.

**Bununla yanaşı, ittifaq üzvlərinin, onların ailə üzvlərinin sağlamlığına qayğı göstərilməsi, onların pensiya təminatının, sanatoriya, kurort müalicəsinin və istirahətlərinin təşkil edilməsi, bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi, əməyin mühafizəsi, ətraf mühitə, sağlamlığa mənfi təsir göstərən faktorların aradan qaldırılması, üzvlərin sağlam və təhlükəsiz iş şəraiti ilə təmin edilməsinə ictimai nəzarətin təşkili istiqamətində ardıcıl olaraq əhəmiyyətli və effektli işlər görülür.**

Həmkarlar ittifaqı fəallarının, həmkarlar ittifaqı işçilərinin və həmkarlar ittifaqı üzvlərinin hazırlanmasının, yenidən hazırlığının, ixtisaslarının və təhsilinin artırılması, həmkarlar ittifaqı üzvlərinə və həmkarlar ittifaqı təşkilatlarına metodiki, informasiya, hüquqi, maddi və digər yardım növlərinin göstərilməsi həmişə diqqət mərkəzində saxlanılır.

**Əmək, sosial, iqtisadi məsələlər barəsində qanunvericilik aktlarının hazırlanmasında yaxından iştirak edən AHİK-in Əmək Məcəlləsinə 120-dən çox təklifi nəzərə alınıb, 50-dək normativ-hüquqi aktın hazırlanmasında və ekspertizasında yaxından iştirak edib.**

Vətəndaşlarımızın ən böyük ictimai təşkilatı olan həmkarlar ittifaqları yeni cəmiyyət quruculuğunda yaxından iştirak edir, sosial siyasətin həyata keçirilməsində önəmli rol oynayır, dövlətin bütün çağırışlarına, o cümlədən sosialyönlü təkliflərinə adekvat cavab verir.

AHİK ölkənin ictimai-siyasi həyatında da xüsusi fəallığı ilə seçilr və bütün sahələrdə öz töhfəsini verməyə çalışır. 2003, 2008, 2013 və 2018-ci illərdə keçirilmiş prezident seçiklərində yüz minlərlə üzvlərinin maraqlarından çıxış edən AHİK cənab İlham Əliyevin namizədliyini irəli sürmüş və dəstəkləmişdir.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev daim AHİK-in fəaliyyəti ilə maraqlanır, onun qurultaylarına təbrik məktubları göndərir, qiymətli tövsiyələrini verir, həmkarlar ittifaqları xadimlərini və fəallarını dövlət təltifləri ilə mükafatlandırır, insanların iqtisadi və sosial mənafelərinin, əmək hüquqlarının qorunması sahəsində həmkarlar ittifaqlarının rolunu yüksək qiymətləndirir.**

Qeyd edək ki, 2020-ci ili dünya ölkələri, o cümlədən Azərbaycan COVID-19 pandemiyası ilə mübarizə şəraitində yaşadı. Pandemiyadan əziyyət çəkənlər hər cəhətdən dövlətin xüsusi qayğısı ilə əhatə olundu. Cənab Prezident İlham Əliyevin tapşırığına əsasən, dövlətin bütün imkan və resursları xəstəliklə mübarizəyə yönəldildi, vətəndaşlarımızın sağlamlığının qorunmasına səfərbər edildi. Həmçinin həmin il Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistan tərəfindən işğal edilmiş torpaqlarını möhtəşəm qələbə ilə azad etdi. Dövlətin bütün təşəbbüslərinə qoşulan AHİK və onun üzv təşkilatları tərəfindən pandemiyaya, həmçinin Vətən müharibəsi ilə əlaqədar tədbirlərə ümumilikdə 12 milyon manat vəsait xərclənib.

Bu gün Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası 16 135 həmkarlar ittifaqı təşkilatı və təqribən 1 121 946 həmkarlar ittifaqı üzvü olmaqla Naxçıvan Muxtar Respublikasının və 26 sahə həmkarlar ittifaqı birliklərini özündə birləşdirir və onların əmək, sosial-iqtisadi hüquq və mənafelərini təmsil və müdafiə edir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyəti həmişə dünya dövlətlərinin həmkarlar ittifaqları, həmçinin beynəlxalq həmkarlar ittifaqları tərəfindən yüksək qiymətləndirilir, təcrübəsindən istifadə olunur.

**Qurum Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının və Ümumhəmkarlar İttifaqları Konfederasiyasının üzvüdür, təşkilatların keçirdiyi bütün tədbirlərə dəvət olunur və fəal iştirak edir.**

Azərbaycan həmkarlar ittifaqlarının beynəlxalq nüfuzu, həmçinin AHİK sədri Səttar Möhbalıyevin dünya həmkarlar ittifaqları hərəkatının inkişafındakı rolu və xidmətləri nəzərə alınaraq o, 2014-cü ilin may ayında Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti, 2015-ci ilin dekabr ayından isə Pan Avropa Regional Şurasının vitse-prezidenti seçilib.

AHİK-in Türkiyə, Fransa, Belçika, İngiltərə, Almaniya, Misir, Yaponiya, Bolqarıstan, MDB dövlətləri, Çin Respublikası və 70-ə yaxın ölkənin həmkarlar ittifaqı mərkəzləri ilə ikitərəfli dostluq əlaqələri var. Qurum gələcəkdə də beynəlxalq əlaqələrini genişləndirəcək, ölkəmizin beynəlxalq əlaqələrinin inkişafına öz töhfəsini verəcək.

**Bundan sonra da həmkarlar ittifaqları əldə olunmuş nailiyyətlərlə kifayətlənməyəcək, yeni dövrün tələblərinə uyğun olaraq öz fəaliyyətini daim təkmilləşdirəcək, cəmiyyətdə nüfuzunu və mövqeyini daha da möhkəmləndirəcək.**

**Emin MƏMMƏDOV**

# İnstitutun bir qrup əməkdaşı təltif olunub



**Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat İnstitutunun bir qrup əməkdaşının təltif olunma mərasimi keçirilib.Tədbir Kənd Təsərrüfatı Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi və Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat İnstitutunun Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə baş tutub.**

İnstitutun Biokimyəvi tədqiqatlar və keyfiyyətə nəzarət laboratoriyasının böyük elmi işçisi Afaq Zeynalova, Elmi işlər üzrə direktor müavini Xədicə Məmmədova, Maliyyə və mühasibat uçotu şöbəsinin müdiri və baş mühasib Güləndam Abdullayeva və İnteqrir mübarizə texnologiyaları laboratoriyasının böyük aqrotexniki Təranə Abbasova aqrar sahədə, xüsusən üzümçülük və şərabçılıq sahəsində xidmətlərinə, həmçinin institutun ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətlərinə görə Fəxri Fərmanla təltif olunublar.

**Tədbirdə çıxış edən Kənd Təsərrüfatı Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Fuad Məmmədov və İnstitutun direktoru Vüqar Səlimov mükafatçıları təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb və Fəxri fərmanları onlara təqdim ediblər.**

# Hesabat-seçki yığıncağı keçirilib

**Kənd Təsərrüfatı Nazirliyinin (KTN) Göygöl rayonunda Respublika Süni Mayalanma Mərkəzinin ilk həmkarlar ittifaqı təşkilatının hesabat-seçki yığıncağı keçirilib.**



Yığıncaqda KTN Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Fuad Məmmədov, həmkarlar ittifaqı təşkilatının üzvləri, həmçinin məsul şəxslər iştirak ediblər.

Yığıncaqda təşkilatın fəaliyyəti ilə bağlı hesabat dinlənilib. Qarşıda duran vəzifələrin və planların müzakirəsi aparılıb.

**Qeyd edək ki, Süni Mayalanma Mərkəzinin ilk həmkarlar ittifaqı təşkilatının 43 nəfər üzvü var.**

# Vətən müharibəsinin şəhid həkimi

**Fevralın 7 si - Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən ailəsi himayəyə götürülən II Qarabağ müharibəsində şəhid olmuş -həkim stomatoloq Tariyel Salmanovun doğum günü idi...**




O, 1988-ci il fevralın 7-də Ağcabədinin Kəhrizli kəndində anadan olub. 2011-ci ildə Azərbaycan Dövlət Tibbi Universitetinin Stomatalogiya fakültəsini müvəffəqiyyətlə bitirmişdi. Həmin ilin oktyabr ayından 2013-cü ilin aprel ayına qədər Azərbaycan Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində hərbi xidmətini tamamlayaraq tibb xidməti leytenantı rütbəsi almışdır.

Azərbaycan Ordusunun leytenantı olan Tariyel Salmanov Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə 60-dan çox yaralı əsgəri qucağında, çiynində raket zərbələrinin altından qaçıraraq təxliyə edib, həyatını qurtarıb.

**T. Salmanov əsgərlərin həyatını xilas edərkən təxliyə zamanı raket zərbələri nəticəsində oktyabrın 8-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. O bu şanlı Vətən müharibəsinin çox az sayda həkim şəhidlərindən biridir.**

Özündən sonra bir qız övladını Vətənə, dövlətə əmanət qoyaraq gedib.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, Tariyel Salmanov ölümündən sonra "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edilib.*

# İŞÇİLƏRİN SAĞLAMLIĞI, ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ CİDDİ NƏZARƏTDƏ SAXLANILIR

**Neft sənayesi işçilərin əməyinin mühafizəsinə xüsusi diqqət tələb edən sahələrdəndir. Ona görə də Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi, onun üzv təşkilatları hər bir neftçinin sağlamlığını, əməyinin təhlükəsizliyini fəaliyyətinin prioritetlərindən sayır. Respublika Komitəsinin Əməyin mühafizəsi şöbəsi hər başa çatan ilin təhlilini aparır, nəticələri qiymətləndirir və növbəti il üçün yanvar ayının ilk günlərindən illik tədbirlər planı hazırlayır. Sonradan bu plan əsasında rüblük və aylıq plan tərtib olunur. Tədbirlər planı çoxistiqamətlidir və olduqca konkretdir. İcrası Həmkarlar İttifaqı Komitəsinin (HİK) nəzarətində saxlanılır, görülən işlər HİK-in iclasında müzakirə edilir, müvafiq qərarlar çıxarılır.**

Kollektiv sazişdə razılaşdırıldığı kimi, ötən il əməyin mühafizəsi tədbirlərinə 204 min manatdan çox vəsait ayrılmışdır. Onlardan bir qismi istehsalatda xəsarətə qarşı xəbərdarlıq tədbirlərinə, bir qismi əmək şəraitinin yaxşılaşdırılmasına, digər bir qismi isə xüsusi geyim, ayaqqabı, qoruyucu vasitələr, süd, müalicə-profilaktik yemək alınmasına xərclənmişdir. Bunlardan əlavə, COVID-19-la mübarizə məqsədilə 105 min manatlıq xüsusi qoruyucu vasitə alınmışdır.

**Ötən il əməyin mühafizəsi ilə bağlı SOCAR-ın müəssisələrində istehsalatda sağlam, təhlükəsiz əmək şəraitinin yaradılması və təmin edilməsi, istehsalat xəsarətlərinin, qəzaların, peşə xəstəliklərinin qarşısının alınması, əmək şəraitinin yaxşılaşdırılması və sağlamlaşdırılması üzrə əhəmiyyətli işlər görülmüşdür. Şirkətin, müəssisə rəhbərlərinin və həmkarlar ittifaqı komitələrinin birgə əməyi sayəsində SOCAR-da və onun müəssisələrində istehsalat sahələri, binaları, iş yerləri müasir standartların tələblərinə uyğun səviyyədə yenidən qurulmuşdur.**




Mənim də iştirakımla SOCAR-ın baş ofisinin Sağlamlıq və Əməyin Təhlükəsizliyi İdarəsi, Əməyin təhlükəsizliyi üzrə daimi fəaliyyət göstərən komissiyası tərəfindən ayrı-ayrı istehsalat sahələrində, xüsusilə də dəniz obyektlərində mütəmadi olaraq yoxlamalar aparılmışdır. Bu yoxlamaların əksəriyyəti COVID-19 pandemiyası səbəbindən onlayn üsulu ilə, zərurət yarandığı hallarda isə minimum say tərkibi ilə əyani həyata keçirilmişdir.

**Görülən bu tədbirlər sayəsində Respublika Komitəsinin xidmətinə daxil olan idarə və müəssisələrdə 2021-ci ildə istehsalatda ölümlə nəticələnən bədbəxt hadisə baş verməmişdir və xəsarətalma sayında azalmaya nail olunmuşdur.**

SOCAR-ın İnsan Həyatının Mühafizəsi üzrə Təlim Mərkəzində təşkil olunmuş xüsusi kurslarda onlayn üsulu ilə dənizdə işləyən işçilərə fövqəladə hallarda sağqalma üsullarının, o cümlədən platformadakı xilasetmə vasitələrindən sərbəst və düzgün istifadəetmə qaydaları öyrədilir. 2426 nəfər işçi bu kurslarda təlim keçmişdir. Beynəlxalq idarəetmə sistemi tətbiq olunan və tətbiqi nəzərdə tutulan müəssisə və təşkilatlarda sertifikatlaşma auditləri keçirilmiş, standartların yeni versiyalarına keçidlə əlaqədar mövcud sertifikatlar yenilənmiş, fəaliyyət sahəsində görülən işlərin günün tələbləri səviyyəsində qurulması üçün müəssisə və təşkilatlardan yeni standartların tətbiqi ilə əlaqədar daxil olan məktublar araşdırılmışdır.

**Güclü qasırğaların və digər təbii fəlakətlərin təsiri nəticəsində baş verə biləcək qəzaların, yanğınların və bədbəxt hadisələrin qarşısının alınması məqsədilə yerlərdə işçilərlə təlim-məşqlər keçirilmiş, istehsalat obyektlərindəki texnoloji qurğu və avadanlıqların, boru xətlərinin, elektrik xətlərinin, hidrotexniki qurğuların və s. vəziyyəti yoxlanılmış, onların yararlı və davamlı vəziyyətdə saxlanılması üçün müvafiq tədbirlər görülmüşdür. Uzun müddət istismar olunan və korroziya nəticəsində davamlılığı azalmış bir çox dəniz özüllərində, estakadalarda və estakadayanı meydançalarda əsaslı təmir işləri aparılaraq onlar təhlükəsiz vəziyyətə gətirilmişdir. Bir sıra istehsalat sahəsində yenidənqurma işləri aparılmış, təhlükəsizlik tələblərinə cavab verməyən istehsalat sahələri tələblərə uyğunlaşdırılmış və ya ləğv edilmişdir.**

2021-ci il ərzində SOCAR-ın 8 tabeli təşkilatında 32 istehsalat obyekti üzrə 1022 iş yeri attestasiya olunmuşdur.

İşçilərin dövri tibbi müayinədən keçmələrinə nəzarət təşkil edilmiş, bir çox tibb məntəqəsində aparılan müayinələrdə SOCAR-ın baş ofisinin Sağlamlıq və Əməyin Təhlükəsizliyi İdarəsinin mütəxəssisləri iştirak etmişlər.

Tərtib olunmuş plan-qrafikə uyğun olaraq 14215 nəfər işçi dövri tibbi müayinədən keçmişdir.

**Xidmətimizdə olan müəssisələrdə çalışan işçilərin hamısı bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta olunub.**

***İsrafil ƏLİYEV,***
***Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Əməyin mühafizəsi şöbəsinin müdiri***

# Qarabağdan Ermənistan sərhədlərinə qədər uzanacaq dəmir yolu tikintisi nə vaxt başa çatdırılacaq?

**Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri ərazi bütövlüyümüzü bərpa etdikdən sonra Qarabağda başlanılan quruculuq işləri çərçivəsində dəmir yolu infrastrukturu layihələri də intensiv şəkildə həyata keçirilir.**



**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti Bərdə-Ağdam, Horadiz-Ağbənd dəmir yolu xətlərinin yenidən qurulması və Füzuli-Şuşa yeni dəmir yolu xəttinin inşası işlərini uğurla davam etdirir.**

**Bəs Ermənistan sərhədlərinə qədər dəmir yolu tikintisi nə vaxt başa çatdırılacaq? Bu tikintidə hazırda vəziyyət necədir?**

**Suallarımızı iqtisadçı-ekspert Elmir Səfərliyə ünvanladıq.**

E.Səfərli dedi ki, 44 günlük haqq savaşından sonra azad olunan torpaqlarımızda infrastruktur layihələrinin qurulması ən önəmli və strateji məsələ hesab olunur. Bu baxımdan ölkə Prezidentinin müvafiq olaraq Bərdə-Ağdam, Horadiz-Ağbənd dəmiryolu xətlərinin yenidən qurulması və bərpası, eləcə də Füzuli-Şuşa dəmir yolu xətlərinin inşası ilə bağlı qərarları Qarabağda başlanılan quruculuq işləri çərçivəsində dəmir yolu infrastruktur layihələrinin intensiv şəkildə keçirilməsinə əsas yaratdı.

Ekspert bildirdi ki, bütünlüklə bu dəmir yolu xətlərinin hər birin ölkəmiz üçün həm siyasi-strateji, həm də iqtisadi əhəmiyyəti mövcuddur. Belə ki, Horadiz-Ağbənd dəmir yolu Zəngəzur dəhlizinə çıxışın tərkib hissəsi hesab edilir. Bu layihənin 2022-ci ilin sonuna kimi yekunlaşması nəzərdə tutulur. Hazırda layihənin icrası tam gücü ilə davam etdirilir. Bu dəmir yolu xətti üzrə tarixi İpək yolunun bərpası və eləcə də Türkiyə ilə Azərbaycan arasında birbaşa nəqliyyat yolunun açılması əslində təkcə Türkiyə və Azərbaycan deyil, eləcə də region dövlətləri arasında ticari nəqliyyat daşımalarının həcminin artırılması üçün çox mühüm bir faktordur. Avropa ölkələri ilə Çin arasında ticarət zəncirinin yaradılması üçün də Zəngəzur dəhlizi mühim hesab edilir. Bu trayektoriya üzrə logistik mərkəzlərin yaradılması, daşınmalar üçün iqtisadi məhdudiyyətlərin götürülməsi regionlar arasında iqtisadi-ticari əlaqələrinin genişlənməsinə xüsusi töhfə verəcəkdir. Bu layihə eyni zamanda iqtisadi əlaqələrin genişlənməsinə paralel olaraq regionda müharibə riskini azaldacaq, yeni sülh və sabit tərəfdaşlığın təməlini qoyacaqdır.




**E. Səfərli digər tərəfdən Bərdə-Ağdam dəmir yolunun bərpasının, eləcə də Füzuli-Şuşa dəmir yolu xətlərinin inşasının da xüsusi əhəmiyyətə malik olduğunu vurğuladı. Əlavə etdi ki, Bərdə-Ağdam dəmir yolunun bərpası 2023-cü ildə yekunlaşdırılması planlaşdırılır. Hər iki layihə Qarabağın iqtisadi, siyasi və turistik inkişafı üçün xüsusi əhəmiyyətə malikdir. Bu layihələrin icrası Qarabağa logistik imkanların potenisallığını artıracaq, digər sahələrin inkişafına isə dəstək verəcəkdir.**

**Gülöyşə MƏMMƏDLİ**



Əhməd İsmayılov

**"Ölkə prezidenti tərəfindən "Media haqqında" qanunun təsdiq olunması, eyni zamanda, güzəştli ipotekadan yararlanan şəxslərin siyahısına dəyişiklik edilməsi barədə fərmanın imzalanması media sferasında islahatların tərkib hissəsidir. Fərmana əsasən, artıq jurnalistlər də güzəştli kateqoriyaya daxil edildilər və digər kateqoriyadan olan şəxslərlə bərabərhüquqlu oldular. Jurnalistlərə güzəştli ipotekanın verilməsi Prezident İlham Əliyevin mətbuata çox böyük töhfəsidir". Bunu Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov deyib.**



Bəhruz Məhərrəmov

# Media sahəsində çalışanların sosial müdafiəsi istiqamətində köklü dəyişikliklər

*Əsli ƏHMƏDOVA*

**Qeyd edib ki, sözügedən fərmana əsasən, gənc ailənin üzvü olan, azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər, eləcə də, gənc ailənin üzvü olmayan, ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər güzəştli ipoteka krediti ala biləcəklər: " Bu imtiyazlardan istifadə edən jurnalistlərimiz həm də tələblərə uyğun olmalıdırlar. İpotekanın verilməsi isə ailənin büdcəsilə hesablanır, tək fərdin əməkhaqqı ilə yox. Güzəştli olması o deməkdir ki, daha aşağı əməkhaqqı alan insanlar bundan istifadə etsinlər. "Media haqqında" qanunun müddəaları bizə imkan verir ki, gələcəkdə də güzəştlərlə bağlı layihələrlə çıxış edək".**

"Media haqqında" qanunun əhəmiyyəti barədə **Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, millət vəkili Bəhruz Məhərrəmov** fikirlərini bizimlə bölüşdü.

Dedi ki, müasir tendensiyalara cavab verən qanunvericilik aktının mövcud olmaması ucbatından bu günə qədər media sahəsində ciddi boşluqlar hökm sürürdü. Köhnə KİV (Kütləvi İnformasiya Vasitələri) haqqında qanunvericiliyin yetərsizliyi və tənzimlənməsi açıq qalan münasibətlərin getdikcə genişlənməsi həm medianın inkişafını, həm də media mənsublarının özlərininin tam realizəsinə imkan vermirdi. Bu tendensiyaya son qoyulması üçün ötən ilin dekabrın 30-da "Media haqqında" qanun qəbul olundu. Bir neçə gün öncə isə cənab İlham Əliyev "Media haqqında Azərbaycan Respublikasının qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə", habelə, "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə fərmanlar imzaladı.

**Millət vəkili bildirdi ki, burada məqsəd ondan ibarətdir ki, "Media haqqında" qanunun bütün subyektlərinə məxsus hüquq və vəzifələri realizə olunsun, media sahəsində proseslərə nəzarəti təmin etmək üçün səlahiyyətli orqanların, şəxslərin inzibati qaydada fəaliyyəti təşkil olunsun. Eyni zamanda qanunun qüvvəyə minməsi və tətbiqi ilə paralel olaraq əlavə hüquqi prosedurlara start verildi. Xüsusən "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"na edilən dəyişikliklə media sahəsində çalışanların sosial müdafiəsi istiqamətində vəziyyəti köklü dəyişdi. Yeni qaydaya əsasən, azı 5 il jurnalist işləyən və media reyestrinə daxil olan media mənsublarımız güzəştli ipoteka imkanlarından yararlana biləcəklər. Bu, həqiqətən çox vacib hadisə kimi qiymətləndirilməlidir.**

## vacib hadisə kimi qiymətləndirilməlidir

B. Məhərrəmov dedi ki, bu günə qədər jurnalistlərin mənzil təminatı yalnız dövlətin iradəsindən asılı idi. Cənab İlham Əliyev ortaya niyyət qoymuşdu ki, Azərbaycan mediasında çalışan hər kəsin mənzil-məişət şəraiti yaxşılaşsın, jurnalist diqqətini daha çox yaradıcılığa, fəaliyyətə ayırsın. Bu iradə də iki dəfə ən yüksək səviyyədə yerinə yetirilmiş, illərlə kirayədə qalan, həqiqətən ehtiyacı olan jurnalistlərimiz mənzillə təmin olunmuşdu. Amma, təəssüf ki, bu ali siyasi iradədən öz məqsədləri üçün istifadə etmək istəyən işbazlar da meydana çıxmışdı və bəzi hallarda mənimsəmə və proteksiya halları, ehtiyacı olanların yox, tanışı, dostu, qohumu, yaxud digər yolla adamı olanların dövlətin adından mənzillə təmin olunması kimi iddiaların ortaya çıxması, bu istiqamətdə iddiaların bəzilərinin məhkəmə qaydasında sübuta yetirilməsinin şahidi olduq. Digər tərəfdən, dövlət adından media mənsublarına mənzillərin paylanması bəzən fərqli müstəvilərdə, məsələn, jurnalistlərin müstəqilliyini itirməsi kimi cəfəng müstəvidə yozulurdu. Baxmayaraq ki, ev almış teleoperatorun müstəqilliyini əlindən almaqla dövlət nəyə nail ola bilər, bu iddiaları ortaya atanlar özləri də cavab tapa bilmir. Bütün bunların fonunda isə güzəştli ipoteka imkanının, ümumiyyətlə ən sağlam yol olması heç kimdə şübhə doğurmur. Hesab edirəm ki, bu fərmanla yaradılan imkan Azərbaycan mediasına dövlətin ən böyük qayğılarından biri kimi qiymətləndirilməlidir.

**Əlavə olaraq bu istiqamətdə sosial mediada ən çox rast gəlinən suallar içərisindən ikisini cavablandırmaq istədik. Konkret olaraq jurnalist məfhumu kimlərə şamil olunur?**


Jurnalist əmək müqaviləsi ilə media subyektində və ya fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə fəaliyyət göstərən, əsas fəaliyyət növü davamlı şəkildə məlumat toplamaq, hazırlamaq, redaktə və istehsal etmək, ötürmək, habelə həmin məlumatlara dair fikir bildirmək (şərh vermək) olan və bu fəaliyyəti gəlir əldə etmək məqsədilə yerinə yetirən şəxsə deyilir.

**Güzəştli ipotekadan yararlanmaq istəyənlər nə qədər, neçə müddətə və faizlə kredit götürə bilərlər?**


Güzəştli ipoteka krediti İpoteka və Kredit Zəmanəti Fondu (İKZF) tərəfindən təqdim olunan kreditdir və maksimal məbləği 100 000 AZN-dir. Müraciət edənlər minimum 10% ödəməklə, maksimum 30 il müddətinə kredit götürə bilərlər. Güzəştli ipoteka krediti üzrə maksimal illik faiz dərəcəsi zəmanət verilməmiş kreditlər üzrə 4%-dir.



Eldəniz Əmirov

# Əhali pullarını banklara qoymaqda niyə bir o qədər də maraqlı deyil?



Akif Nəsirli

**Bu gün ölkə əhalisi banklardan daha çox, necə deyərlər, "döşək altına" etibar edirlər. Səbəb də bankların qoyulan əmanətlərə görə verdikləri depozit faizlərinin aşağı olmasıdır. Narazılıq doğuran digər səbəb isə, bankların əhaliyə kreditləri yüksək faizlə verməsidir. Bu uyğunsuzluğu aradan qaldırmaq, əhalinin etibarını qazanmaq üçün bankların imkanları varmı?**

**Bu suallarımıza cavab tapmaq üçün iqtisadçı-ekspertlər Eldəniz Əmirov və Akif Nəsirliyə müraciət etdik.**

Eldəniz müəllim bildirdi ki, bankların depozitləri 10 faizlə götürməsi, əvəzində isə kreditləri 18-20 faizlə verməsi hazırda bazar qanunlarına əsasən tənzimlənir və bu qanunların da kökündə duran Mərkəzi Bankın uçot dərəcəsidir: "Burada ciddi şəkildə maliyyə sisteminin qanunauyğunluqları rol oynayır. Onsuz da dünyanın bütün ölkələrində götürülən depozit faizi ilə müqayisədə faizlə verilən kreditlərin həcmi daha çoxdur. Və biz də bunun nəticəsində bu il dünya bazarında və Azərbaycanda mənzillərin, o cümlədən bütövlükdə daşınmaz əmlakın qiymətinin qalxdığını müşahidə edirik. Daşınmaz əmlakın qiymətinin qalxmasının birinci səbəbi məhz bankların əhalidən depoziti aşağı faizlə götürməsidir. Sual yarana bilər ki, niyə axı bu, daşınmaz əmlakın qiymətinə təsir edib? Ona görə ki, insanlar öz vəsaitlərini 8-10 faizlə depozit şəklində qoymaqdan daha çox, daşınmaz əmlakın alqısına yönəltməyə üstünlük verirlər. Çünki onu sonra kirayəyə verirlər, eyni zamanda əmlak da olduğu kimi qalır, dəyər itirmir. Amma bankların verdiyi həmin 8-10 faiz pul vətəndaşı qane etmir. Ona görə ki, inflyasiyanın göstəriciləri bankların depozit faizlərindən yuxarıdır. Nəticə etibarilə də vətəndaş banka qoyduğu puldan faktiki olaraq hansısa bir mənfəət əldə edə bilmir və beləliklə dəÖ vəsaitlər daşınmaz əmlaka yönəldirilir. Bunun da nəticəsini biz hazırda, yuxarıda da qeyd etdiyim kimi, daşınmaz əmlakın qiymətinin qalxması ilə müşahidə edirik.

**"Nə üçün banklar insanları razı salmır?" məsələsinə gəldikdə isə, banklarda insanları razı salacaq hər hansısa bir kateqoriya yoxdur. Yəni maliyyə bazarlarının öz qanunauyğunluğu var və bu qanunauyğunluq da tələb və təklifdən ibarətdir. Sadəcə olaraq, təklif edən tərəfdə bir monopoliya, bir inhisarçılıq meyilləri olduqda "təklif" məcburi formada yuxarı faizlərlə qarşı tərəfə təqdim olunur".**

Akif Nəsirli məsələyə münasibət bildirərkən dedi ki, banklar vətəndaşa 12 faizdən yuxarı təklif edirsə, əvəzində vətəndaşın pulu sığortalanmır və vətəndaş da pulunu qorumaq üçün məcburiyyət qarşısında qalıb maksimum hədd kimi 10-12 faizi seçir: "Depozit əmanətlərinin formalaşmasında, depozitin qəbulunda iki tərəf olur: depoziti qoyan və depoziti qəbul edən bank. Bank müştərisinə 15, hətta 20 faiz də təklif edə bilər. Amma məsələ burasındadır ki, Azərbaycanda Əmanətlərin Sığortlanması Fondu (ƏSF) tərəfindən ancaq 12 faizə qədər faiz dərəcəsi ilə qoyulan depozitlər sığortalanır. Yəni 30 min manat maksimum 12 faizə qədər faiz dərəcəsi ilə depozit olaraq yerləşdirilirsə, avtomatik olaraq Əmanətlərin Sığortalanması Fondunda həmin əmanət sığortalanır. Əgər 30 min manatdan yuxarı məbləğ varsa, yaxud bankla razılaşıb depozitə 15 faizə əmanət qoyursa, bu zaman artıq ƏSF-də bu əmanət sığortalanmır. Yəni bu, dolayı yolla Mərkəzi Bankın, ümumiyyətlə, dövlətin bank siyasətinin bir hissəsidir. Bu qaydaları birbaşa hökumətin bank siyasəti müəyyənləşdirir.

"Nə üçün depozit gəliri 10 faizdir, amma kreditlər 18 faizdən başlayır?" sualınıza aydınlıq gətirmək istəyirəm. Gəlin hesablayaq: tutaq ki, 10 faizə yerləşdirilən depoziti kredit təklif etməliyik. Bunun təxminən 1,5-2 faizi kreditlərin texniki xərcləri sayılır, 3-6 faiz civarında Mərkəzi Bankın hesabıdı, yəni hər sənədləşdirilən kreditdən Mərkəzi Banka ödəniş olunur, 2 faiz tutaq ki, öz işçilərinin xərcidi və sair. Bütün bunları hesabladıqda bu gəlir çıxır 16 faizə. 16 faiz çıxarı olan bank 5 faiz mənfəət götürməlidirmi? Deməli, banklar 18 faizdən başlamaqla çox ədalətli mövqe tutur əslində. Yəni özlərinə minimum 2 faiz mənfəət götürürlər. İndi gəlin dünya təcrübəsi ilə müqayisə edək. Elə yaxın qonşumuz Gürcüstanı götürək. Gürcüstan məlumdur ki, sərvəti çox az, maliyyə imkanları isə aşağı olan bir ölkədir. Gürcüstanda bu gün kredit faiz dərəcələri 30 faizdən yuxarı, depozit faizləri isə 18-20 faiz təşkil edir. Ona görə vətəndaşlarımız aparır əmanətlərini depozitə o kimi ölkələrə qoyur. Təbii ki, Azərbaycan maliyyə ehtiyatı olan bir ölkə kimi bunu aradan qaldırmaq imkanına malikdir. Norveç və digər maliyyə ehtiyatı yüksək olan Avropa ölkələrində mərkəzi bank kommersiya banklarının donoruna çevrilir. Biz bu gün dolların uçot dərəcəsini daha intensiv izləyirik, nəinki manatın uçot dərəcəsini. Çünki bizdə manatın uçot dərəcələri heç kimə lazım deyil. Ona görə lazım deyil ki, Mərkəzi Bank kommersiya banklarına donorluq etmir, onlara pul satmır. Hazırda Azərbaycanda kredit portfelinin 80 faizə qədərini depozitlər təşkil edir. Biz bu siyasətdən əl çəkmədiyimiz üçün kifayət qədər maliyyə ehtiyatımız var. Ancaq, təəssüf ki, bundan yararlanmırıq. Çünki ölkədə manatın məzənnəsi üzən məzənnə ilə yox, hökumətin xüsusi müdaxiləsi ilə tənzimlənir".

**A.Nəsirli dedi ki, banklara əhali tərəfindən qoyulan pullar 2020-ci il və 2021-ci ilin əvvəlində azalan tendensiya ilə müşahidə edilirdi. Son 6 ayda artıq əmanətlərin azalması yox, çoxalması müşahidə edilir: "Neftin qiyməti artıq, demək olar ki, yüksək həddədir. Bu o deməkdir ki, manatın məzənnəsini möhkəm saxlamaq üçün, devalvasiyaya getməmək üçün hökumətin əlində imkanları var. Həm də 2015-ci il devalvasiyasından sonra məzənnə, demək olar ki, çox da "oynamır". Ona görə də əhalidə bu yöndə arxayınlıq var ki, bu da depozitlərin qoyulma tendensiyasında artımla müşahidə olunur".**

**Aliyə SƏMƏDOVA**

# Vergi güzəştləri ərzaq bahalaşmasının qarşısını alacaqmı?

**Dünyada son bir ildə baş verən kəskin ərzaq bahalaşması qlobal bazarın fəal iştirakçılarından biri olan Azərbaycana da öz mənfi təsirlərini göstərməkdədir. Əhalinin qida məhsullarına olan tələbatının bir hissəsini xarici ölkələrdən idxal hesabına təmin edən Azərbaycan hökuməti sabit qiymət bazarını formalaşdırmaq üçün yerli istehsalın xüsusi payının artırılması yollarını müzakirə etməkdədir. İl ərzində xaricdən 2 milyard dollar həcmində, başqa sözlə, ümumi tələbatın 30 faizi qədər ərzaq malları idxal olunur. Bu da, təbii ki, inflyasiyanın meydana gəlməsinə, artmasına hissediləcək dərəcədə təsir göstərir. Bu təsirin qarşısını almaq məqsədilə ölkə daxilində ərzaq məhsullarının istehsalının tam dəyər zəncirinin formalaşdırılması və 100%-lik lokalizasiyaya, yəni istehsal üçün lazım olan bütün xammal və komponentlərin ölkədə tədarükünün təşkili nəzərdə tutulur.**



Beynəlxalq Valyuta Fondunun (BVF) yaxın 5 illlik qlobal bazar qiymətlərinə dair proqnozlarına görə, 2021-ci ildə yüksək həddə çatmış qlobal inflyasiya göstəricisi 2022-ci və sonrakı illərdə də davam edəcək, dünya bazarında bir çox mal və xidmətlərin qiymət artımları müşahidə olunacaqdır. Proqnozlara görə, inflyasiya hər il 3,5 -5,9 % artmaqla yaxın perspektivdə yüksək səviyyədə qalacaqdır. Bütün bu meyillər, xarici risk faktoru Azərbaycan hökumətini daxili bazarda yerli ərzaq mallarının istehsalı və təminatının davamlı artırılması üçün təxirəsalınmaz addımlar atmağa vadar edir.

Məsələ ondadır ki, bu gün Azərbaycanda ən nəhəng istehsal müəssisələri hələ də tamamilə 100 faiz yerli xammalla təchiz olunmayıb, müxtəlif mal qrupları üzrə idxal komponentlərindən asılılıq qalmaqdadır. Bu amil isə, sözsüz ki, qlobal bazarlarda əmtəələrin bahalaşması zamanı yerli istehsala bilavasitə öz təsirlərini göstərir. Azərbaycanda çox az sayda istehsal müəssisəsi var ki, 100% lokalizasiya əsasında fəaliyyət göstərə bilir. İri müəssisələrin, ələlxüsus da qida sənayesində, şərabçılıq və süd emalını nəzərə almasaq, əksəriyyəti yenə də məhsul istehsalı üçün lazım olan komponentlərin bir hissəsini xaricdən alır. Bu baxımdan istehsalın lokalizasiyası qiymət siyasətində həlledici rol oynayır. Ona görə də istehsal olunan məhsulların xammal zəncirinin daxili bazarda tədarükünün təşkili üçün vergi və gömrük güzəştlərinin olunması qaçılmaz reallığa çevrilib.

**Mövcud iqtisadi ssenariləri nəzərə alan hökumət, yerli istehsalın daha da artırılması məqsədilə, biznes icmasına vergi güzəştləri və digər iqtisadi stimulların verilməsi barədə müvafiq orqanlara yeni təkliflər paketi hazırlamaq tapşırığı verib. Dövlət Vergi Xidməti yerli və xarici biznes icması ilə hazırda bu məsələni müakirə edir. Özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühitin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması, haqsız rəqabətin qarşısının alınması, biznesin təşviqi mexanizmlərinin artırılması üçün vergi və gömrük qanunvericiliyində əlavə adekvat motivasiya imkanlarının nəzərə alınması istisna deyil. Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayevanın sözlərinə görə, ortamüddətli dövrdə başlıca hədəf ölkədə qeyri-neft istehsalını artırmaq, xüsusilə də idxalı əvəz edən malların tədarükünü təmin etməkdir. Bu məqsədlə idxal məhsullarının yerli istehsal məhsulları ilə əvəzlənməsi, sənayeləşmənin daha da inkişafı üçün effektiv vergi tənzimlənmələrinin həyata keçirilməsi olduqca vacibdir. Mütəmadi aparılan təhlillər ölkənin hansı məhsullarının idxaldan asılılığının mövcudluğunu və həmin məhsulların ölkədə istehsalının həcminin artırılması üçün nə kimi iqtisadi təşviq alətlərinə ehtiyacı olduğunu müəyyən edir. Bu tənzimləmə alətlərindən biri də vergi təşviqləri olduğuna görə, qarşıdakı dövrdə yerli istehsalın təşviqi ilə bağlı vergi tənzimləmələri həyata keçiriləcək. Maliyyə və kapital bazarlarının inkişafının da vergi yolu ilə tənzimlənməsi və təşviqi nəzərdə tutulur. Maliyyə və kapital bazarları nə qədər çox inkişaf etsə, bir o qədər real sektorun inkişafına dəstək verə bilər. Ona görə də ölkəmizdə müasir maliyyə alətlərinin inkişafı üçün vergi təşviqlərinin, vergi tənzimləmələrinin verilməsi də planlaşdırılır.**

Vergi orqanlarının qarşısına qoyulmuş əsas tələblərdən biri həm də iqtisadiyyata birbaşa xarici investisiyaların cəlb olunması məqsədilə stimullaşdırıcı vergi siyasətinin yürdülməsidir. Ötən illər ərzində xarici iş adamlarına e-rezidentliyin verilməsi ilə daha əlverişli investisiya mühiti yaradılıb, xarici hüquqi şəxslərlə bağlı sənədlərin qanunvericiliyin tələblərinə uyğunluğu real vaxt rejimində yoxlanılıb. Qeyri-rezidentlərə "ASAN İmza" sertifikatının verilməsi üçün təlimata dəyişiklik olunub və müvafiq proqram təminatı yaradılıb, hüquqi və texniki infrastruktur təmin edilib. Qeyri-rezidentlərə mobil rezidentlik təqdim olunub. Əcnəbilər "ASAN İmza" (-rezidentlik) əldə etməklə Azərbaycanda yeni şirkəti qeydiyyatdan keçirmək, bank əməliyyatları və müxtəlif ödənişlər aparmaq, vergiləri onlayn şəkildə ödəmək imkanına malikdirlər ki, bu da biznesə asan və rahat başlamaq üçün tamamilə yeni iqtisadi mexanizm olmaqla, güclü stimul deməkdir. Hazırda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 minə yaxındır. Xarici şirkətlərin 32,1 faizi Türkiyəyə məxsusdur. Rusiya, Böyük Britaniya, ABŞ və Fransaya məxsus investisiyalı müəssisələrin sayı da az deyil. Koreya Respublikası, Yaponiya, İran, Belarus, Litva, Latviya, İtaliya və digər ölkələrin şirkətlərinin sayında son vaxtlar artım qeydə alınıb. Ancaq bununla yanaşı, xarici investorlar üçün qanunvericiliyin daha da təkmilləşdirilməsi qarşıya məqsəd qoyub. Təkliflər sənədinə əsasən, aidiyyəti dövlət orqanlarına vergi, gömrük, fiskal, maliyyə, biznes mühiti sahələrində xarici investorların hüquqlarının qorunması mexanizmləri, onlara dövlət zəmanəti verilməsi qaydası, mübahisələrin danışıqlar, məhkəmə, həmçinin arbitraj yolu ilə həlli üsulları (beynəlxalq arbitraj qaydalarının müddəaları nəzərə alınmaqla) və digər məsələlərin həlli nəzərdə tutulubdur. Bu strateji plana əsasən, xarici investorların sayının ən azı 10 minə çatdırılması gözlənilir.

**Beləliklə, iqtisadiyyatın strukturunun dəyişməsi, yeni innovasiyaların tətbiqinin artması və yerli biznesin əlavə təşəbbüslərinin meydana çıxması, həmçinin xarici investorların yeni təklifləri və beynəlxalq tendensiyalar vergi qanunvericiliyinə dəyişklikləri labüd edir. Bütün bu təşəbbüslərin arxasında isə başlıca prinsip yerli istehsalın həcminin 2 dəfəyə yaxın artırılmasına nail olmaqdır. Bu hədəfə çatmaqla hökumət ərzaq məhsullarının istehsalının tam dəyər zəncirinin formalaşdırılmasını və 100%-lik lokalizasiyasını təmin edə, bununla da ərzaq mallarının bahalaşmasında xarici faktor təsirini azalda bilər.**

**Elbrus CƏFƏROV**




**İstirahət günü görülən işə görə əməkhaqqı necə ödənilir?**

**Cavid MƏMMƏDOV, Sumqayıt şəhəri.**

-İstirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü görülən işə görə əməkhaqqı aşağıdakı kimi ödənilir:

əməyin vaxtamuzd ödənilmə sistemində gündəlik tarif maaşının iki mislindən aşağı olmamaqla;

əməyin işəmuzd ödənilmə sistemində ikiqat işəmuzd qiymətlərindən aşağı olmamaqla;

aylıq maaş alan işçilərə iş aylıq iş vaxtı norması çərçivəsində görülmüşsə, maaşdan əlavə gündəlik vəzifə maaşı məbləğindən aşağı olmamaqla, əgər iş aylıq iş vaxtı normasından artıq vaxtda görülmüşsə, maaşdan əlavə gündəlik vəzifə maaşının ikiqat məbləğindən aşağı olmamaqla.

İstirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü işləmiş işçinin arzusu ilə ona əməkhaqqı əvəzinə başqa istirahət günü verilə bilər.

**(Əmək Məcəlləsi, maddə 164)**

**Mediasiya prosesi nədir və bu proses zamanı hər hansı bir müdaxiləyə yol verilirmi?**

**Şəbnəm RƏSULOVA, Bakı şəhəri.**

- Mediasiya - mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunan prosesdir.

Mediasiya zamanı mediator müstəqil və qərəzsiz olmalıdır. Mediator mediasiya prosesini həyata keçirən zaman tərəflərdən, dövlət və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən asılı olmamalıdır və mediasiya zamanı adıçəkilən orqanların və şəxslərin mediatorun fəaliyyətinə müdaxiləsinə yol verilmir.

Mediator mediasiya zamanı hər iki tərəfə bərabər yanaşmalı, tərəflərin mediasiya zamanı bərabər iştirakını təmin etməli və hər iki tərəfə proses zamanı tələblərini təqdim etmək üçün bərabər imkanlar yaratmalıdır. Mediatorun qərəzsizliyinə mane olan hallar olduqda mediator mediasiyanı aparmaqdan imtina etməlidir.

**Bələdiyyələrin əməyin mühafizəsi sahəsində səlahiyyətləri varmı?**

**Sevda MİKAYILOVA, Salyan rayonu.**

- Əməyin mühafizəsi sahəsində bələdiyyə orqanlarının da müəyyən səlahiyyətləri mövcuddur. Əmək Məcəlləsinin 214-cü maddəsinə əsasən Bələdiyyə orqanları:

əməyin mühafizəsi sahəsində dövlət siyasətinin tabeliklərində olan ərazidə həyata keçirilməsini təmin edirlər;

əməyin mühafizəsi üzrə sahələrarası yerli əhəmiyyətli proqramlar hazırlayır və onların yerinə yetirilməsini təmin edirlər;

regional problemlərin həlli və əməyin mühafizəsinin təmin edilməsində mülkiyyətçilərə yardım göstərilməsi üçün onların pay iştirakı və digər vəsaiti hesabına əməyin mühafizəsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada məqsədli fondlar yaradır və bu fondların vəsaitinin təyinatı üzrə xərclənməsini təmin edirlər.

**İşəgötürənlə işçi arasında yaranan hansı məsələlər fərdi əmək mübahisəsinin predmeti ola bilər?**

**Şahin QARAYEV, Bakı şəhəri.**

- Fərdi əmək mübahisələri, işəgötürənlə işçi arasında əmək müqaviləsinin, kollektiv müqavilənin şərtlərinin, habelə əmək qanunvericiliyinin və digər normativ-hüquqi aktların tətbiqi zamanı yaranan və bu Məcəllə ilə müəyyən edilmiş qaydada, üsullarla və şərtlərlə tərəflərin hüquq bərabərliyi və qanunun aliliyi prinsipləri əsasında həll edilən fikir ayrılığıdır.

**Əmək Məcəlləsinin 288-ci maddəsi ilə aşağıdakı məsələlərin tənzimlənməsi zamanı yaranan fərdi əmək mübahisələrinin həlli nizama salınır:**

a) əmək müqaviləsinin bağlanması, ləğv edilməsi və ya onun şərtlərinin dəyişdirilməsi;

b) əmək normalarının, həmçinin işçinin əmək funksiyasının həcminin müəyyən edilməsi;

c) əmək müqaviləsində nəzərdə tutulan iş yerinin dəyişdirilməsi;

ç) əmək şəraitinin şərtlərinin dəyişdirilməsi;

d) əməkhaqqının, habelə digər ödəmələrin müəyyən edilməsi və hesablanması, yaxud ödənilməsi;

e) əməkhaqqından, habelə digər ödəmələrdən tutulmaların aparılması;

ə) məzuniyyət hüququnun həyata keçirilməsi;

f) intizam tənbehi verilməsi;

g) əməyin mühafizəsinin təşkili və təmin edilməsi;

ğ) işçinin işəgötürənə vurduğu maddi və ya mənəvi ziyanın məbləğinin müəyyən edilməsi və ödənilməsi;

h) işəgötürənin işçiyə vurduğu maddi və ya mənəvi ziyanın məbləğinin müəyyən edilməsi və ödənilməsi;

x) işçilərin və ya iş yerlərinin attestasiyası komissiyasının qərarının qanunauyğunluğu və ya əsaslılığının müəyyən edilməsi;

ı) müsabiqə komissiyasının qərarının qanuni, obyektiv və ədalətli olub-olmamasının araşdırılması;

i) istehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində işçiyə və ya onun ailə üzvlərinə vurulan ziyana görə əvəzin məbləğinin müəyyən edilməsi və ödənilməsi;

j) səhmlər və ya digər qiymətli kağızlar üzrə ödəmələrin məbləğlərinin müəyyən edilməsi və ödənilməsi, habelə özəlləşdirmə prosesində və sonralar əmək münasibətləri ilə bağlı normaların tətbiq edilməsi;

k) əmək müqaviləsinin, habelə kollektiv müqavilənin şərtlərinin və əmək qanunvericiliyinin pozulması ilə bağlı digər məsələlərin tətbiq edilməsi.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

**Natamam iş vaxtı hansı hallarda tətbiq edilir?**

**Səmayə FƏTULLAYEVA, Mingəçevir şəhəri.**

- Əmək Məcəlləsinin 94-cü maddəsinə əsasən, Əmək müqaviləsi bağlanarkən, habelə əmək münasibətləri prosesində işçi ilə işəgötürənin qarşılıqlı razılığı ilə natamam iş vaxtı - natamam iş günü, yaxud natamam iş həftəsi müəyyən edilə bilər.

Natamam iş vaxtının müddəti və onun qüvvədə olduğu zamanın - ayın, ilin davamiyyəti tərəflərin razılığı ilə müəyyən edilir.

İşçinin səhhəti və fizioloji vəziyyəti (hamiləlik, əlillik, o cümlədən 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu), habelə xroniki xəstəliyi olan uşağının və digər ailə üzvünün səhhəti müvafiq tibbi rəyə görə əmək funksiyasının natamam iş vaxtında yerinə yetirilməsini tələb edərsə, habelə on dörd yaşına çatmamış, yaxud sağlamlıq imkanları məhdud uşağı olan qadınlara ərizələrilə işəgötürən natamam iş vaxtı (iş günü, yaxud iş həftəsi) müəyyən etməlidir.

Natamam iş vaxtı əməyin ödənilməsi ya əmək funksiyasının icrasına sərf olunan vaxta mütənasib, ya da tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilir.

Əmək funksiyasını natamam iş vaxtında yerinə yetirən işçilərin bu Məcəllə və ya əmək müqaviləsi ilə müəyyən edilmiş əmək hüquqlarının hər hansı şəkildə məhdudlaşdırılması yolverilməzdir.

**Uşaqlı qadınlara verilən əlavə məzuniyyət haqqında məlumat verməyinizi xahiş edirəm.**

**Zöhrə İSMAYILOVA, Gəncə şəhəri.**

-Əsas və əlavə məzuniyyətlərin müddətindən asılı olmayaraq, 14 yaşınadək iki uşağı olan qadınlara 2 təqvim günü, bu yaşda üç və daha çox uşağı olan, həmçinin sağlamlıq imkanları məhdud uşağı olan qadınlara isə 5 təqvim günü müddətində əlavə məzuniyyət verilir.

Uşaqlarını təkbaşına böyüdən ataların, həmçinin uşaqları övladlığa götürmüş şəxslərin bu maddənin birinci hissəsində nəzərdə tutulan əlavə məzuniyyət hüququ vardır.

Bu əlavə məzuniyyət hüququ müvafiq təqvim ilinin sonunadək uşaqlardan birinin 14 yaşı tamam olduğu hallarda da saxlanılır.

**(Əmək Məcəlləsi, maddə 117)**

Bu maddə ilə müəyyən edilmiş əlavə məzuniyyətlər bu Məcəllənin 118 (Pedaqoji və elmi fəaliyyətlə məşğul olan işçilərin əmək məzuniyyətlərinin müddətləri), 119 (Fizioloji keyfiyyətləri ilə bağlı işçilərin məzuniyyətlərinin müddətləri), 120 (Azərbaycan xalqı qarşısında xüsusi xidmətləri olan işçilərin əmək məzuniyyətinin müddəti) və 121-ci (Teatr-tamaşa və bunlara uyğun digər müəssisələrin işçilərinin əmək məzuniyyətləri) maddələrində göstərilən işçilərə verilmir.

**Əmək və icra intizamına əməl edilməsinə görə fərqlənmiş işçilər işəgötürən tərəfindən hansı qaydada mükafatlandırıla bilər?**

**Niyazi HƏSƏNOV, Şəmkir rayonu.**

- Əmək və icra intizamına əməl edilməsinə görə fərqlənmiş işçilərin mükafatlandırılması Əmək Məcəlləsinin 185-ci maddəsi ilə tənzimlənir Qanunvericiliyə əsasən, əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsində, müəssisədaxili intizam qaydalarına əməl edilməsində fərqlənmiş işçilər işəgötürən tərəfindən:

pul və ya qiymətli əşyalar hədiyyə edilməklə;

əlavə məzuniyyət verilməklə;

əməkhaqqına fərdi əlavə edilməklə;

daha yüksək məbləğdə fərdi sığorta edilməklə;

sanatoriya-kurort müalicəsi, turist səfərləri yollayışının haqqı ödənilməklə;

müəyyən edilmiş qaydada dövlət təltifinə təqdim olunmaq barədə vəsatət qaldırmaqla və digər həvəsləndirmə vasitələri ilə mükafatlandırıla bilərlər.

# Səhiyyə və sosial müdafiə işçilərinin tətili




**Səhiyyə və sosial müdafiə işçilərinin layiqli əməkhaqqı və yaxşı iş şəraitinə haqları var. Sloveniya hökuməti həmkarlar ittifaqları ilə danışıqlara, maaşların artırılmasına və daha yaxşı şəraitə yol açacaq müqavilələri pozdu. Hökumət işçilərin tələblərinə qulaq asmadığı üçün səhiyyə və sosial təminat işçiləri həmkarlar ittifaqları fevralın 16-da tətilə çıxdılar. Həmkarlar ittifaqları səhiyyə və sosial müdafiə sahəsində vəziyyətin mürəkkəbliyindən, xüsusən də mövcud epidemioloji vəziyyətdən xəbərdardırlar. Onların üzvləri artıq iki ilə yaxındır ki, bu cəbhədə çalışırlar.**

Həmkarlar ittifaqlarının əsas tələbi hökumətin əvvəllər əldə edilmiş razılaşmalara hörmət etməsidir. Hazırda bu, tərəflərin etimadına layiq deyil. Bəzi qrupların xeyrinə qərarlar iş mühitini pozdu, daha çox işçini sektoru tərk etməyə məcbur etdi. Həmkarlar ittifaqları həkimlərin və diş həkimlərinin işi ilə müqayisə oluna bilən işin yenidən qiymətləndirilməsini tələb edir. Bu, ayrı-ayrı vəzifələrin və peşəkar qrupların qiymətləndirilməsində fərqləri aradan qaldıracaq. Həmkarlar ittifaqları həmçinin əvvəlki razılaşmaya (2018-ci il ) hörmət və əməl etməyə çalışırlar. Hökumətin atdığı addımlar ictimai sağlamlıq və sosial müdafiə sistemini sarsıdır.

Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Federasiyası həmkarlar ittifaqının tələblərini dəstəkləyir. Həmkarlar ittifaqları ilə birlikdə hökuməti səhiyyə və qayğı xidməti işçilərinin rolunu tanıyan etibarlı təkliflərlə danışıqlar masasına qayıtmağa çağırır.

**Tətil "ZSSS", "KSJS" və "Pergam" konfederasiyalarının səhiyyə və qayğı xidməti işçiləri həmkarlar ittifaqlarının vahid cəbhəsi tərəfindən təşkil edilir. Konfederasiyaların ictimai sektorunun qrupları hökumətlə vətəndaş və dövlət qulluğunun bütün işçilərinə qarşı danışıqlar aparırlar. Həmkarlar ittifaqları üzvləri ilə mart ayının əvvəlində mümkün tətil ilə bağlı məsləhətləşirlər, çünki işəgötürən işçilərin narahatlığına reaksiya vermir.**

# Gənc işçilər üçün keyfiyyətli iş yerləri və layiqli əməkhaqqı



**-Avropa Parlamentinin hörmətli üzvləri!**

**Avropa ölümcül pandemiyanın növbəti variantı ilə mübarizə aparır, eyni zamanda əvvəlki dalğaların nəticələri vətəndaşlarımıza çox ağır təsir göstərib. İnflyasiya əməkhaqqının zəif artımına nisbətdə sosial bərabərsizliyi ifrat həddə çatdırır.**

Gənclər artan işsizliyin və qeyri-standart məşğulluğun görünməmiş təsirindən əziyyət çəkənlər kimi müəyyən edilib. Buna görə də biz Məşğulluq və Sosial Məsələlər Komitəsinin Avropa gənclərinin səlahiyyətlərinin artırılmasına dair qətnamə irəli sürmək təşəbbüsünü (Avropada gənclərin və gənc işçilərin həyatının yaxşılaşdırılması) alqışlayırıq.

**Avropanı böhrandan çıxarmağa qadir olan qitə institutlarının etibarı təhlükə altındadır. Bu səbəbdən hesab edirik ki, qətnamə iddialı olmalı və gənc işçilərin həyatını yaxşılaşdırmaq üçün konkret və məcburi həllər təklif etməlidir.**

Gənc və təcrübəli işçilərdən ixtisaslarının artırılması adı altında ucuz işçi qüvvəsi kimi istifadə edilməsinə çoxdan yol verilir, lakin bərpa dövründə buna yer verilməməlidir. Təcrübələrin keyfiyyətinə dair məcburi meyarların tətbiqi, sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq, gənclərin əmək bazarına bərabər çıxışını təmin etmək üçün ədalətli üsuldur.

**Gənc işçilər keyfiyyətli iş yerlərinə və layiqli əməkhaqqına layiqdirlər, ödənilməyən stajlara təsirli və hüquqi cəhətdən məcburi qadağa isə çoxdan vaxtı keçmiş vədlərdən biridir. Ümid edirik ki, siz hamınız plenar səsvermə zamanı bu mühüm tələbi dəstəkləyəcəksiniz. Biz hər hansı bir əlavə izahat üçün hər zaman hazırıq.**

**Həmrəylik əlaməti olaraq:**

**Lüdovik VOET,**
**Avropa Həmkarlar İttifaqları Konfederasiyasının katibi**
**Tea JARC**
**Avropa Həmkarlar İttifaqları Konfederasiyasının Gənclər Komitəsinin prezidenti**

# Müəllim peşəsinin statusunun yüksəldilməsi

**Fevralın 8-9-da Avropa həmkarlar ittifaqının 50-dən çox eksperti Təhsil üzrə Avropa Həmkarlar İttifaqı Komitəsinin (ETUCE) Bərabərlik üzrə Daimi Komitəsinin illik iclasında onlayn şəkildə iştirak ediblər. Görüş zamanı iştirakçılar keyfiyyətli təhsil və müəllim peşəsinin cəlbediciliyi üçün bərabər imkanların təşviqi ilə bağlı fikir və təcrübə mübadiləsi aparıblar.**

Bu il daimi komitənin iclası müəllim peşəsinin cazibədarlığının və statusunun yüksəldilməsində və Avropa regionunda keyfiyyətli təhsilin təmin edilməsində bərabərliyin və inkluzivliyin əsas roluna, o cümlədən müəllimlərin çatışmazlığı probleminin həllinə və həmkarlar ittifaqlarının yenilənməsinə həsr edilmişdir.

İştirakçılar müəllim peşəsində bərabərliyə nail olmaq və təhsil həmkarlar ittifaqlarında müxtəlifliyin artırılması ilə bağlı bir sıra məsələləri müzakirə ediblər. Tədbirdə çıxış edən natiqlər insan hüquqları sahəsində maraqlı məlumatı diqqətə çatdırıblar.




**Avropa Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) Baş katibinin müavini Ester Linç Avropa İttifaqının işçilərin əməyinin ödənilməsinin şəffaflığı haqqında Direktivinin, xüsusilə işçilərin əksəriyyətinin qadınlar olduğu tədris kimi peşələr üçün əhəmiyyətini vurğulayıb. O, izah edib ki, bu qanunvericilik bərabər əməkhaqqı uğrunda mübarizəni əhəmiyyətli dərəcədə artıra və qadınların gördüyü işləri lazımınca qiymətləndirilməməsini dayandıra bilər. Bununla əlaqədar AHİK əməyin ödənilməsində gender fərqinin aradan qaldırılması məqsədilə kollektiv danışıqlar zamanı əməkhaqqının bərabər ödənilməsi uğrunda mübarizədə həmkarlar ittifaqlarını dəstəkləyən qanunvericiliyin qəbul edilməsinə dəstək verməyə çağırır.**

ETUCE-nin üzv təşkilatları tərəfindən xüsusi ehtiyacları ödəmək, demokratik dəyərləri çatdırmaq və irqçiliklə mübarizə aparmaq, gender bərabərliyini təşviq etmək və cinsi zorakılığı aradan qaldırmaq məqsədi daşıyan Bərabərlik, müxtəliflik və inklüzivlik üzrə Komitənin fəaliyyət planının həyata keçirilməsi üzrə geniş spektrli ən yaxşı milli təcrübələr təqdim olunub.

Kiçik qruplarda həmkarlar ittifaqlarının bərabərlik məsələləri üzrə ekspertlər qabaqcıl təcrübələri ətraflı şəkildə izah ediblər. Müəllim peşəsinin statusunun və cəlbediciliyinin artırılmasına dair ETUCE-nin xüsusi konfransının əsas qətnaməsi ilə bağlı öz rəylərini bildiriblər. İştirakçılar iş yükü ilə bağlı stresin, xüsusilə qadınlara güclü təsirin, bərabərliyin və inteqrasiyanın təmin edilməsi üçün təhsilin və qarışıq tədrisin rəqəmsallaşdırılmasının risklərini vurğulayıblar. Sektorda bədbəxt hadisələrin və təhlükəli əmək şəraitinin ictimai təhsilinin keyfiyyətinə güclü təsir göstərdiyini qeyd ediblər. Ailələri özəl təhsilə və ya əlavə təhsil xidmətlərinə sövq etdiyini, şagirdlər arasında mövcud sosial-iqtisadi və digər boşluqların dərinləşdiyini bildiriblər.

**Daimi komitənin üzvləri gənc müəllimlərə və digər təhsil işçilərinə münasibətdə əmək bazarı tendensiyalarının və həmkarlar ittifaqı siyasətinin təhlilinə dair ETUCE araşdırmasının nəticələrini açıqlayıblar. Gənc üzvlərə həmkarlar ittifaqı təşkilatlarında yer verilməsinin, o cümlədən həmkarlar ittifaqları və sosial dialoq məsələləri üzrə onlara təhsil verilməsinin vacibliyini vurğulayıblar.**

# Həmkarlar ittifaqlarında birləşmənin üstünlüyü




**İctimai Xidmət İnternasionalı (PSİ) Ümumdünya Səhiyyə Təşkilatı ( ÜST ) yanında məsləhətçi statusunda olan yeganə həmkarlar ittifaqı təşkilatıdır. Kifayət qədər yaxşı maliyyələşdirilən universal ictimai səhiyyə sistemləri motivasiya olunmuş və mütəşəkkil tibb işçiləri ilə COVID-19 pandemiyasından əvvəl də səhiyyədə fövqəladə hallara hazırlığının nə qədər həyati əhəmiyyət daşıdığını vurğulayır.**

İcraiyyə Komitəsi 2022-ci ilin mayında Ümumdünya Səhiyyə Assambleyasında daha geniş müzakirəyə çıxarılacaq bir sıra mövzuları, o cümlədən 11 texniki məsələni, həmçinin pandemiya haqqında müqavilə üzrə danışıqlarla bağlı bir neçə məsələni nəzərdən keçirib . PSİ-nin arqumentlərinin əsasında ictimai səhiyyənin şirkətlərin kommersiya maraqlarından üstün tutulmalı olduğu iddia edilirdi. Bir daha, PSİ vaksinlərə bərabər çıxış yolunda əsas addım kimi, COVID-19 peyvəndləri, testləri və dərmanları üzrə patentlərin dayandırılmasını tələb etdi.

ÜST-ün icmalında vərəmlə bağlı tədqiqat və innovasiya büdcələrinin təxmin edilən ehtiyacların yarısından az olduğu göstərilir. Yaxın perspektivdə heç bir yeni dərman, vaksin və ya diaqnostik vasitə gözə dəymir ki, bu da əqli mülkiyyət hüquqlarına əsaslanan əczaçılıq innovasiyalarının stimullaşdırılmasının mümkünsüzlüyünü vurğulayır. Bundan əlavə, araşdırmalar patent qaydalarının və mövcud ticarət rejiminin hazırkı müalicələrə çıxışa necə maneələr yaratdığını göstərdi.

PSİ İdarə Heyətinin üzvü Herbert Beck deyib ki, dövlət maliyyəsi vərəm əleyhinə dərmanların hazırlanmasına əczaçılıq sənayesindən 3-5 dəfə çox töhfə verir. Bununla belə, həddindən artıq korporativ mənfəət səbəbindən bu dərmanlar əsasən əlçatmazdır. Biz hökumətləri və ÜST-ü COVID-19 texnologiyaları üçün TRIPS istisnasını vərəmə qədər genişləndirməyə və bu məsələni 2023-cü il BMT-nin Vərəm üzrə Yüksək Səviyyəli Görüşünün gündəliyinə daxil etməyə çağırırıq.

**PSİ yaşlılara qayğı kimi özəl tibb müəssisələrinin də qeyri-kafi tənzimləməsinin COVID böhranını və infeksiyanı daha da gücləndirdiyini vurğuladı. Həmkarlar ittifaqlarında birləşmənin işçilərə təhlükəsizlik məsələlərini qaldırmağa və daha sağlam müəssisələrə öz töhfələrini verməyə necə imkan verdiyini də göstərdi. Nəhayət, biz ÜST-ü infeksiyanın qarşısını almağa kömək edən adekvat işçi heyətinə və qanuni işçi-xəstə nisbətinə daha çox diqqət yetirməyə çağırdıq.**

Sonra PSİ-nin səhiyyə və sosial xidmətlər üzrə məsul işçisi Baba Aye yeni pandemiya sazişinin əsas məqsədi haqqında məlumat verdi.

Qeyd olundu ki, ÜST üçün davamlı maliyyələşdirmə qlobal sağlamlığın açarıdır, xüsusən də səhiyyə siyasəti və texniki məsləhətləri üçün ÜST-ə güvənən aşağı və orta gəlirli ölkələr üçün.

**PSİ üzv dövlətlərin məcburi üzvlük haqlarının artırılmasına çağırışı dəstəklədi və ÜST-ün sabit çoxtərəfli təşkilat olması zərurətini vurğuladı.**

# TƏLİMLƏRİN ƏHƏMİYYƏTİ




**Ötən həftə Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Federasiyası (EPSU) Gənclik Şəbəkəsinin nümayəndələri "ETUI" ilə əməkdaşlıq çərçivəsində Portuqaliyanın Sesimbra şəhərində təşkil olunmuş Avropa Həmkarlar İttifaqları Konfederasiyası (ETUC) Gənclərin Təlim Həftəsində iştirak etmişdir.**

Təlimlər xüsusilə iştirakçıların ödənilməmiş stajların qadağan edilməsi üzrə ETUC kampaniyasını inkişaf etdirmək və həyata keçirmək üçün Avropa İttifaqında (Aİ) vəkillik və lobbiçilik strategiyalarına həsr olunmuşdur. Təlimlər Aİ institutları, siyasəti və Avropa semestrləri haqqında ətraflı məşğələlərlə, həmçinin Aİ-nin vəkillik metodologiyası ilə bağlı çox məlumatlı olmuşdur. İştirakçılar həm milli, həm də Aİ səviyyəsində qərar qəbul edən şəxslərin lobbiçiliyi üçün taktika və alətlərlə təchiz olunublar.

Həftə sonunda iştirakçılar yeni əldə etdikləri bacarıqlardan istifadə edərək ödənişsiz təcrübələrə qarşı kampaniyanın bir hissəsini hazırladılar. Hər bir iştirakçı kampaniya çərçivəsində qısa zamanda sosial şəbəkələrdə paylaşılacaq qısa video çəkdi.

**EPSU ETUC gənclər kampaniyasını dəstəkləyir. Bu ilin sonunda EPSU tərəfindən bütün EPSU Gənclər Şəbəkəsi üçün növbəti təlimlər təşkil olunacaq.**




**Fevralın 15-də Avstraliyada əhalinin ən sıx məskunlaşdığı ştatda (Yeni Cənubi Uels) dövlət xəstəxanalarının və klinikalarının bir neçə min işçisi maaşların dəyişməməsinə və kadr çatışmazlığına qarşı tətilə qoşulub. Tibb işçilərinin tətili region müəllimlərinin həmkarlar ittifaqı və Avstraliya Birləşmiş Həmkarlar İttifaqı tərəfindən dəstəklənib.**

Bu, tibb bacılarının, demək olar ki, on ildə ilk tətilidir və əmək münasibətləri üzrə dövlət komissiyasının onu dayandırmaq əmrinə baxmayaraq, davam edir.

**Fərdi qoruyucu vasitələr və tibbi xalat geyinmiş minlərlə tibb bacısı və digər tibb işçiləri Sidney küçələri boyunca yürüş ediblər. Beləliklə, onlar işlərində təhlükəsizlik tələblərinin pozulması, xəstəxanalarda, poliklinikalarda və doğum evlərində kadr çatışmazlığından şikayətlərini hökumətə çatdırmağa çalışıblar. Bundan başqa, cəmi 2,5 faiz nəzərdə tutulan maaş artımının həcmi də səhiyyə işçilərini qane etmir. Hazırda dövlət xəstəxanalarında orta tibb bacısı saatda 41 Avstraliya dolları (29 dollar) alır. Beləliklə, tam birhəftəlik iş zamanı onların əməkhaqqı staj və iş təcrübəsindən asılı olaraq 6,5 min Avstraliya dolları (4,6 min ABŞ dolları) ilə 8 min Avstraliya dolları (5,7 min ABŞ dolları) arasında dəyişir. Yeni Cənubi Uels Səhiyyə Departamentinin sözçüsü işçilərin COVID-19 pandemiyasının iki ili ərzində yorulmadan işlədiyini etiraf etdi. Bununla yanaşı, qeyd olundu ki, Yeni Cənubi Uelsdəki dövlət xəstəxanalarında kadr çatışmazlığından söhbət gedə bilməz, indiki tarixdə burada heç vaxt olmadığı qədər çox tibb bacısı və mama var.**

**Səhifəni hazırladı: Azər MUSTAFAYEV**

# Akkreditasiyadan keçə bilməyən universitetlər və tələbələr hansı problemlərlə qarşılaşacaq?



**"Ali məktəblərin akkreditasiyasına dair yeni meyarlar hazırlayırıq. Həmçinin institusional səviyyədə akkreditasiyadan keçə bilməyən universitetləri və tələbələrini müəyyən problemlər gözləyir". Bunu ali təhsil müəssisələri ilə keyfiyyət mövzusuna dair görüşdə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin sədri Ülkər Səttarova deyib.**

Akkreditasiya ilə bağlı hansı yeni meyarlar hazırlanır? Akkreditasiyadan keçə bilməyən universitetlər və tələbələr hansı problemlərlə qarşılaşacaq?

Suallarımızla müraciət etdiyimiz **Təhsil Xidmətləri Araşdırma və Təhlil Mərkəzinin rəhbəri Kamran Əsədov** dedi ki, təhsil müəsissələri lisenziya almaq üçün dövlət rüsumunu yaradıldığı günlərdə ödəyir. Amma akkreditasiyadan 5 il sonra keçirlər. Təbii ki, 5 il ərzində ali məktəblərin maddi-texniki bazası köhnəldiyindən onları yeniləmək, akkreditasiya rüsumu ödəmək xərc tələb edən məsələlərdir. Əksər ali məktəblər tələbələrin təhsil haqqını artırmaqla bu xərci qarşılamağa üstünlük verir. Bu faktın özü göstərir ki, həmin təhsil müəssisələri rentabelli fəaliyyət göstərirlər.

**K.Əsədov qeyd etdi ki, akkreditasiyanın pullu olması təhsil müəssisələrinin məsuliyyətini də artıracaq. Bizdə artıq belə nümunələr var. Əmək bazarının və müasir çağırışların tələblərinə uyğun tələbə hazırlığı həyata keçirə bilməyən təhsil ocaqları akkreditasiyadan keçə bilməyib. Onların maddi-texniki bazası zəifdir. Laboratoriyaları, psixoloji və fizioloji xidmətləri yox dərəcəsindədir. Amma ciddi şəkildə akkreditasiya təşkil olunsa, buna görə rüsum tələb olunsa, qeyd olunan problemlər aradan qalxar. Nəzərə alsaq ki, Təhsil Nazirliyi akkreditasiya üçün resurslar cəlb edir və akkreditasiya daha çox universitetin özü üçün lazımdır, buna görə rüsum tətbiq olunmalıdır. Amma hesab edirəm ki, ali təhsil müəssisələri üçün müəyyən olunmuş rüsumları yüksək etmək olmaz. Bu zaman xərclərin çoxluğu məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyətini dayandırmağa gətirib çıxara bilər.**

**Təhsil eksperti Elçin Əfəndiyev** isə bildirdi ki, bu vaxta qədər bəzi universitetlər var idi ki, onlar dövlət tərəfindən lisenziyalaşdırılmamışdı, akkreditasiya olunmamışdı. Nəzərə alsaq ki, faktiki olaraq ölkədə 55-dən çox ümumi universitet və həmçinin bir o qədər orta təhsil ixtisas müəssisəsi, kolleclər var. Bunların hər birindən də tələb olunur ki, akkreditasiyadan keçsinlər və lisenziyaları olsun.

Əlbəttə, qarşıdakı dövrdə həmin universitetlər əgər lisenizya və yaxud akkreditasiyadan keçməzlərsə, diplomları tanınmaya bilər. Eyni zamanda orada təhsil alan tələbələr, təbii ki, universiteti bitirdikdən sonra diplomlarını tanıtdıra bilməyəcəklər. Belə olan halda həm orta ixtisaslı təhsil müəssisələri, həm də ali təhsil müəssisələri mütləq qaydada akkreditasiyadan keçməli və lisenziyalarını almalıdırlar.

**E.Əfəndiyev onu da qeyd etdi ki, bu qayda təkcə ölkəmizdəki ali təhsil müəssisələrinə aid deyil, eyni zamanda xarici ölkələrdə də təhsil alan tələbələrə aiddir. Buna görə xaricdə təhsil alan tələbələrimiz çox diqqətli olmalıdırlar. Təhsil aldıqları müəssisənin lisenziyasının olub-olmamasını, akkreditasiyadan keçib-keçmədiyini öyrənməlidirlər. Ölkənin müvafiq təhsil qurumunun akkreditasiyası, lisenziyası olması vacibdir.**

**Gülöyşə MƏMMƏDLİ**

# Pandemiya ilə əlaqədar yeni dövlət standartı qəbul olunub



**Yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma hallarına qarşı görülən preventiv və profilaktik tədbirlərin keyfiyyətinin daha da yüksəldilməsi və beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə ISO/PAS 45005:2020 beynəlxalq standart əsasında AZS ISO/PAS 45005:2022 "Peşə sağlamlığı və təhlükəsizliyi idarəetmə sistemləri - COVID-19 pandemiyası zamanı təhlükəsiz işləmək üzrə ümumi rəhbərlik" yeni dövlət standartı qəbul olunub.**

"Keyfiyyət Assosiasiyası" İctimai Birliyinin dəstəyi ilə hazırlanan yeni standartın layihəsi İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs (AZSTAND) tərəfindən təsdiqlənib və standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

**Yeni standartın tətbiqi pandemiya dövründə müəssisələrdə təhlükəsiz iş mühitinin yaradılması ilə yanaşı, onların davamlı və səmərəli fəaliyyət göstərməsinə xidmət edəcək.**

## İdman

**Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə gənclər (U-20) arasında keçirilən Azərbaycan çempionatına yekun vurulub.**

**Milli komandalara seçim xarakteri daşıyan yarışda Azərbaycan həmkarlar ittifaqlarının idman cəmiyyətləri də uğurla iştirak ediblər.**




### Ölkə birinciliyində 5 medal

**"Zenit" İdman Cəmiyyətinin təmsilçiləri sərbəst və yunan-Roma güləşi üzrə gənclər (U-20) arasında Azərbaycan çempionatında 5 medal qazanıblar.**

Əli Süleymanov yunan-Roma güləşi üzrə yarışda 130 kq. çəki dərəcəsində mübarizə aparıb. Məşqçi-müəllim Əbülfət Məmmədovun yetirməsi ikinci yeri tutub.

Sərbəst güləş üzrə yarışda iştirak edən Ramik Heybətov 61 kq. çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək birinci yeri tutub. Onunla eyni çəkidə yarışan Ayxan Abdullazadə isə üçüncü olub. Cəmiyyətin digər sərbəst güləşçiləri Məhəmmədəli Əliyev (74 kq.) ikinci, Musa Ağayev (65 kq.) isə üçüncü pillədə qərarlaşıblar. Onların bu uğuru qazanmasında məşqçi-müəllimlər Samir Əliyevin və Cəbrayıl Həsənovun da böyük rolu var.



### Bir gümüş və bir bürünc medal

**"Pəhləvan" İdman Cəmiyyətinin təmsilçiləri yunan-Roma güləşi üzrə yarışda bir gümüş və bir bürünc medal qazanıblar. Cəmiyyətin yetirməsi Elmir Əliyev 60 kq. çəki dərəcəsində mübarizəyə başlayıb. Finala qədər irəliləyib. Həlledici görüşdə məğlub olaraq ikinci yeri tutub.**

87 kq. çəki dərəcəsində yarışan Cavidan Nuri isə bürünc medala sahib olub.

İdmançılar yarışa məşqçi-müəllimlər Elnur Müzəffərovun və Akif Əliyevin rəhbərliyi altında hazırlaşıblar.

**AZƏR**

## Cüdoçularımızın uğuru

**Bosniya və Herseqovinanın Sarayevo şəhərində cüdo üzrə açıq Avropa turniri başa çatıb. Turnirdə 60 kiloqram çəki dərəcəsində çıxış edən cüdoçularımız, "Atilla" İdman Klubunun yetirmələri Turan Bayramov qızıl, Samir Piriyev gümüş medal qazanıblar.**

Ölkəmiz bu nəticə ilə ümumi komanda hesabında 7-ci yerdə qərarlaşıb.




## ALLAH RƏHMƏT ELƏSİN!

"Xidmət-İş" Həmkarlar İttifaqları Federasiyasının prezidenti İlyas Əliyev və aparat işçiləri "Azpetrol LTD" MMC-nin sabiq HİK sədri **RAMİZ YUSİFOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

"Azərsu" Təsərrüfatı İşçiləri HİRK-in sədri Akif Məmmədov və aparat işçiləri AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi **NADİR ƏSƏDOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mədəniyyət İşçiləri Hİ Yevlax Rayon Komitəsinin sədri Zöhrə Adgözəlova Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi **RAMİZ müəllimin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Şamaxı Rayon Komitəsinin sədri Əqidə Sadıqova Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri **SAMİR ƏHMƏDZADƏNİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Zaqatala Rayon Komitəsinin sədri Sona Qaziyeva Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi **RAMİZ müəllimin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Qobustan Rayon Komitəsinin sədri Leyla Hüseynova Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri **SAMİR ƏHMƏDZADƏNİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Yevlax Rayon Komitəsinin sədri Svetlana İsayeva sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı **NADİR ƏSƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Ağdam Rayon Komitəsinin sədri Cahangir Talıbov Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri **SAMİR ƏHMƏDZADƏNİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Tovuz Rayon Komitəsinin sədri Asif Qasımov sahə Hİ Goranboy Rayon Komitəsinin sədri Nizami Abdullayevə həyat yoldaşı **ELMİRA xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Ağstafa Rayon Komitəsinin sədri Zahid Sultanov sahə Hİ Goranboy Rayon Komitəsinin sədri Nizami Abdullayevə həyat yoldaşı **ELMİRA xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Tərtər Rayon Komitəsinin sədri Sadiq Quliyev Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri **SAMİR ƏHMƏDZADƏNİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Şəmkir Rayon Komitəsinin sədri Fərhad Cəfərov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi **RAMİZ müəllimin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Şəki Rayon Komitəsinin sədri Rəhman Məmmədov Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri **SAMİR ƏHMƏDZADƏNİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Bərdə Rayon Komitəsinin sədri Vüqar Şadlinski Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi **RAMİZ müəllimin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Mingəçevir Şəhər Komitəsinin sədri Cəlal İsmayılov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi **RAMİZ müəllimin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ İsmayıllı Rayon Komitəsinin sədri Gülər Abdullayeva Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri **SAMİR ƏHMƏDZADƏNİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Qəbələ Rayon Komitəsinin sədri Malik Ağayev Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi **RAMİZ müəllimin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Ağsu Rayon Komitəsinin sədri Telman Şükürov Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri **SAMİR ƏHMƏDZADƏNİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Baş redaktor:
AQİL DADAŞOV
Təsisçi:
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7505
Sifariş: 496
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət